RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 198 (8791) CÜMƏ, 17 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan-Türkiyə birliyinin gücü ilə artıq hər kəs hesablaşmağa məcburdur



# Qardaşlığın Zəfər təntənəsi

1918-ci il sentyabrın 15-də ilk nömrəsi işıq üzü görən "Azərbaycan" qəzetində Bakının azad edilməsi haqqında Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın teleqramı dərc edildi:

"Bismillahir-rəhmanir-rəhim! Bakı şəhəri 15.09.1918-ci il saat 09-a işləmiş igid ordu hissələrimiz tərəfindən azad olundu".

Bəli, artıq düşmən məhv edilmiş, Bakı azadlığına qovuşmuşdu.

Xalq sevinc göz yaşları içərisində, qalib ordunu qarşılamaq üçün küçələrdə selə dönmüş, Bakının xilasının Azərbaycan adlı dövlətin əbədi varlığına hesablanmış tarixi zəfər olduğunu fərəhlə qeyd etmişdi...

Ay ulduzlu qoşa bayraqlar - Azərbaycan və Türkiyə bayraqları birlikdə qürurla dalğalandırılmışdı...

Düz 103 il əvvəldə olduğu kimi, 15 sentyabr 2021-ci ildə yenə də bütün Azərbaycan başdan-başa ay ulduzlu qoşa bayraqlarla bəzəndi, el-obamız şadlığa büründü, fərəhdən, qürurdan qəlblərimiz dağa döndü...

Düzdür, hər ilin 15 sentyabrında Bakının azadlığını qeyd edirdik, amma builki bayram əhvalımız, coşqumuz bir başqaydı...

Bu il Bakının azadlığının sevinci, Qarabağ Zəfərinin təntənəsi ilə birgə qeyd olunurdu, bayram, fərəh, sevinc bir-birinə qarışmışdı...

Azərbaycan xalqının bu müqəddəs günü birlikdə qeyd etmək üçün ilk baş çəkdiyi ünvan isə bütün şəhərlərimizdə, rayonlarımızda, kəndlərimizdə olan Şəhidlər xiyabanları idi...

Xalqımız Vətən uğrunda canlarını qurban verən bütün şəhidlərimizin, eləcə də 103 il əvvəl bu torpağın müdafiəsinə gələn və heç düşünmədən bu uğurda canlarını fəda edərək şəhadətə ucalan türk qardaşlarımızın ruhları qarşısında baş əydi, onlara sonsuz rəhmət dilədi...

Paytaxtda və digər şəhərlərimizdə Azərbaycan hərbçilərinin Bakının işğaldan azad olunması münasibətilə möhtəşəm yürüşü oldu. Bu cür yürüşlər Azərbaycanın bütün bölgələrində, eyni zamanda mədəniyyət paytaxtımız Şuşada təntənə ilə, qururla həyata keçirildi...

### Qardaşlığın təntənəsi

15 sentyabr 1918-ci il Türkiyə-Azərbaycan qardaşlığının, birliyinin çoxəsrlik tarixində yaddaqalan məqamlardan biri kimi əbədi olaraq yaddaşlarımıza yazılıb. Məhz həmin tarixdə erməni soyqırımına məruz qalan soydaşlarımızı qaniçən Şaumyanın başçılıq etdiyi daşnaklardan qurtaran Qafqaz İslam Ordusunun əsgərləri əsl mənada azərbaycanlı qardaşlarına arxa, kömək oldular. Ozamankı mürəkkəb situasiyada, sözün əsl mənasında, Osmanlı dövləti Azərbaycana kömək üçün dünyanı qarşısına aldı...

İki qardaş xalq arasında olan tarixi həmrəylik hər ötən gün daha da güclənir, ayrılmaz tellərlə bir-birinə bağlanır. Ortaq kökümüz, dilimizin, dinimizin, oxşar mədəniyyətimizin və adət-ənənələrimizin olması isə bu birliyi şərtləndirən əsas amillərdəndir.

Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət kimi xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı qardaşlıq münasibətləri gündən-günə daha yüksək zirvəyə daşınır.

Ardı 4-cü səh.

## SADƏ, amma QƏTİ

### İlham Əliyevin dövlət məmurlarından tələbi:

### "Nümunə göstərmək, insanlarla bir yerdə olmaq, əhalinin qayğısına qalmaq"

Bu yazımızda Prezident İlham Əliyevin Cəlilabad və Şəmkir rayon icra hakimiyyətlərinə yeni başçıların təyinatı ilə bağlı videoformatda keçirdiyi qəbulunu bir neçə baxış bucağından nəzərdən keçirməyə və qiymətləndirməyə çalışacağıq.

30 ilə yaxın davam edən erməni işğalından sonra 44 günlük Vətən müharibəsinin Ali Baş Komandanın, Azərbaycan Ordusunun və bütünlükdə xalqımızın möhtəşəm qələbəsi ilə başa çatması bizə düşmənlərin və bütün dünyanın qibtə edə biləcəyi gücə, birliyə və əfsanəvi döyüş ruhuna malik olduğumuzu göstərdi. Həmin Vətən savaşında Ordumuz Ali Baş Komandanın rəhbərliyi altında hər gün yeni qələbələrə imza atırdı. Düşmənin üstünə şığıyan igidlərimiz ölümü təbəssümlə - ən yüksək mükafat kimi qəbul edirdilər. Yaralı əsgərlərimizin yerə yıxılmadan, çökmədən, qəzəblə düşmənin üstünə yeriməleri bu gün də erməni işğalçıları üçün qorxulu mənzərədir.

Ardı 5-ci səh.

## Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Xəzər rayonunun Binə, Buzovna və Qala qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 sentyabr 2021-ci il*

## "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2021-ci il iyulun 6-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində Anlaşma Memorandumu" təsdiq edilsin.
2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Serbiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 sentyabr 2021-ci il*

## E.Ə.Məmmədəliyevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının dövlət orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Eldar Əli oğlu Məmmədəliyev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 sentyabr 2021-ci il*

◆ **Müəllifi İlham Əliyevdir**

## Hər iş ASAN, hər kəs məmnun

### Prezident İlham Əliyevin 5 il öncə açılışını etdiyi Qəbələ "ASAN xidmət" mərkəzinə indiyədək 700 mindən artıq müraciət daxil olub

Azərbaycanın dilbər güşələrindən biri, Bakıdan sonra ikinci ən böyük turizm mərkəzi, əsrarəngiz gözəlliklərə sahib olan Qəbələdəyik...

Gəlişimizin səbəbi həm 5 il öncə Prezident İlham Əliyevin açılışını etdiyi "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olmaq, həm də "YAŞAT" Fondunun burada təşkil etdiyi "Birlikdə yaşadaq" layihəsi çərçivəsində keçirilən mərasimə qatılmaq idi.

### Azərbaycanın 10-cu "ASAN"ı

"ASAN xidmət" Mərkəzinin müasir dizayn üslublu binası həm şəhərin maraqlı memarlıq nümunələrinə əlavə yaraşıq verir, həm də burada operativ və şəffaf xidmət missiyası davam etdirilir. 2016-cı ilin avqust ayının 20-dən fəaliyyətə başlayan mərkəzdə vətəndaşlara müxtəlif dövlət orqanları tərəfindən, ümumilikdə 320-dən çox xidmət göstərilir.

Ardı 5-ci səh.

## Onun adı Nuru paşaydı...

103 il öncə Qafqaz İslam Ordusu tərəfindən Bakının daşnak-bolşevik cəlladlarından təmizlənməsinin milli dövlətçilik tariximizdə özünəməxsus yeri var.

Bu şərəf dolu hadisə Azərbaycan-Türk qardaşlığının simvolu kimi də əlamətdardır. Azərbaycan xalqı həmin günün şanlı tarixini yaratmış qəhrəmanlarını hər zaman böyük sevgi, ehtiram və qürur hissi ilə yada salır. Onların xatirəsini əziz tutur. Bakının işğaldan azad edilməsində Nuru paşa adı isə xüsusi hörmət və ehtiramla xatırlanır. Çünki həmin çətin və mürəkkəb zamanda Azərbaycanın bir çox regionlarını düşməndən təmizləmiş Qafqaz İslam Ordusuna məhz bu igid komandan rəhbərlik edirdi. Qəhrəmanlığı, Azərbaycana sevgisi ilə adını qəlbimizə yazmış bu tarixi şəxsiyyətin xatirəsi xalqımız üçün olduqca əzizdir.

### Trablis qəhrəmanı



Nuru paşa 1889-cu ildə İstanbulda anadan olub. 1934-cü ildə Türkiyədə sosial, mədəni sahələrdə islahatlar başlananda özünə Killigil soyadını götürmüşdü. O, ilk təhsilini başa vurandan sonra 1906-cı ildə quru qoşunları məktəbinə daxil olur. 1909-cu ildə həmin məktəbi bitirir və zabit kimi orduda xidmətə başlayır. 1913-cü ildə yüzbaşı, üç il sonra minbaşı, 1918-ci ildə isə yarbay rütbəsi alır. Birinci Dünya müharibəsi illərində Şimali Afrikada olan Osmanlı ordusu tərkibində xidmət keçir. Liviya ərazisində cəbhə komandanı kimi fəaliyyət göstərir. Onun komandan kimi yüksək hərbi istedadı da bu döyüşlərdə üzə çıxır. Liviya cəbhəsində nümayiş etdirdiyi igidliklərə görə Nuru paşa minbaşı rütbəsinə, "Altun ləyaqət" medalına, Almaniyanın "Dəmir xaç" medalına, 1917-ci ildə "Altun imtiyaz" medalına, eyni zamanda Avstriya-Macarıstan dövlətinin üçüncü dərəcəli fərqlənmə nişanına layiq görülür. O, Trablis qərb cəbhəsində də şücaət göstərir. Trablis müharibəsindəki igidliyinə görə qəhrəman kimi məşhurlaşır. Yada salaq ki, həmin dövrdə Trablis cəbhəsində aparılan hərbi əməliyyatlar, türk əsgər və zabitlərinin misilsiz qəhrəmanlığı barədə unudulmaz ədibimiz Cəfər Cabbarlının "Trablis müharibəsi", yaxud "Ulduz" adlı maraqlı bir pyesi də vardır.

Nuru paşa Türkiyə hökumətinin hərbi naziri Ənvər paşanın qardaşı idi.

Ardı 4-cü səh.

## Koronavirusa yoluxanlar ona yenidən yaxalana bilər

### Odur ki, məsuliyyətli olmaq, vaksinasiyadan keçmək vacibdir

Bəşəriyyət üçün təhlükəli xəstəlik olan koronavirus infeksiyasının pandemiyaya çevrilməsi dövlətlərin sosial-mədəni, eləcə də iqtisadi həyatını iflic edir. Buna görə də iki ilə yaxın müddətdir bu bəladan xilas olmağın yolları araşdırılmaqdadır.

Bax: səh. 8



# Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlarından təmizlənməsi sahəsində əlaqələndirmə işini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. beynəlxalq humanitar minatəmizləmə standartları nəzərə alınmaqla, minatəmizləmə fəaliyyətinə dair tələbləri üç ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (bundan sonra - Agentlik) təklifləri əsasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin (bundan sonra - ərazilər) minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlarından (bundan sonra - minalardan və hərbi sursatdan) təmizlənməsi sahəsində prioritet təşkil edən ərazilər nəzərə alınmaqla minatəmizləmə üzrə illik planı hər il dekabrın 25-dək təsdiq etsin;

1.3. bu Fərmanın 2.4-cü bəndində nəzərdə tutulan məlumat bazasına daxil ediləcək məlumatların növünü, həcmini, daxiledilmə müddətini və qaydasını üç ay müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. bu Fərmanın 1.2-ci bəndində nəzərdə tutulan plana uyğun olaraq Agentlik və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (bundan sonra - minatəmizləmə sahəsində fəaliyyət göstərən digər dövlət orqanları) arasında tapşırıqların bölgüsünü (bundan sonra - tapşırıqlar bölgüsü) həyata keçirsin, həmçinin planda nəzərdə tutulmayan hallarda dövlət orqanlarının (qurumlarının) müraciəti əsasında minatəmizləmə işlərinin təşkili üçün müvafiq tədbirlər görsün;

1.5. Agentliyin maddi-texniki təminatını gücləndirmək məqsədilə zəruri tədbirlər görülməsini təmin etsin;

1.6. ərazilərin minalardan və hərbi sursatdan təmizlənməsi sahəsində görülmüş işlər barədə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. Agentlik:

2.1. minatəmizləmə sahəsində fəaliyyət göstərən digər dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin, habelə xarici ölkələrin müvafiq qurumlarının minatəmizləmə fəaliyyəti üzrə mövcud qüvvə və vasitələri nəzərə alınmaqla ərazilərdə minatəmizləmə fəaliyyətinin hər növbəti il üçün planlaşdırılmasına dair təkliflərini cari il dekabrın 1-dək hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.2. tapşırıqlar bölgüsünə uyğun olaraq əlaqələndirilməni, görülmüş işlərin icrasının monitorinqini və bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulan tələblər əsasında keyfiyyətlə tamamlanmasına nəzarəti həyata keçirsin;

2.3. minatəmizləmə sahəsində fəaliyyət göstərən digər dövlət orqanlarının şəxsi heyətinin bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulan tələblərə uyğun olaraq ixtisasının artırılması ilə bağlı tədbirlər görülməsini təmin etsin;

2.4. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq bu Fərmanın 1.3-cü bəndində nəzərdə tutulan məlumatlara dair elektron məlumat bazasının (bundan sonra - məlumat bazası) dörd ay müddətində formalaşdırılmasını, eləcə də onun fəaliyyətini, məlumatların mütəmadi yenilənməsini və emalını təmin etsin;

2.5. tapşırıqlar bölgüsünə uyğun olaraq görülmüş işlər barədə mütəmadi olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

2.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Minatəmizləmə sahəsində fəaliyyət göstərən digər dövlət orqanları:

3.1. minatəmizləmə fəaliyyətini tapşırıqlar bölgüsünə uyğun olaraq öz qüvvə və vasitələri hesabına həyata keçirsinlər;

3.2. minatəmizləmə fəaliyyətinə cəlb edilmiş şəxsi heyətin işini bu Fərmanın 1.1-ci bəndində nəzərdə tutulan tələblərə uyğun təşkil etsinlər;

3.3. aşağıdakı məlumatların mütəmadi olaraq Agentliyə verilməsini təmin etsinlər:

3.3.1. məlumat bazasına daxil edilməsi üçün bu Fərmanın 1.3-cü bəndinə uyğun olaraq müəyyənləşdirilmiş məlumatların;

3.3.2. tapşırıqlar bölgüsünün icrası ilə bağlı məlumatların;

3.3.3. minatəmizləmə fəaliyyəti üzrə öz qüvvə və vasitələri barədə məlumatların.

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 sentyabr 2021-ci il*

# Azərbaycanın müdafiə naziri Pakistan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razaya başsağlığı ünvanlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, başsağlığında Cənubi Vəziristan əyalətinin Asman Manza bölgəsində kəşfiyyat əsaslı antiterror əməliyyatı zamanı qardaş Pakistan Silahlı Qüvvələrinin hərbi qulluqçularının həlak olması və yaralanması xəbərinin dərin kədər hissi doğurduğu ifadə olunub.

Nazir həlak olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyib.

# Xankəndiyə qanunsuz səfər edən Fransa rəsmilərinə Azərbaycana giriş qadağası tətbiq olunacaq

Fransa Milli Assambleyasının üzvü Fransua Pupponi ilk dəfə deyil ki, Azərbaycan ərazisinə qanunsuz səfər edir. O, qatı anti-Azərbaycan mövqeyi ilə seçilir.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Fransa Milli Assambleyasının üzvü Fransua Pupponinin Azərbaycanın Xankəndi şəhərinə qanunsuz səfərinə münasibət bildirərkən deyib.

"Azərbaycan qanunvericiliyini pozduğu üçün deputatın adı ölkəmizə girişi qadağan olunan xarici ölkə vətəndaşlarının siyahısındadır. Fransa Milli Assambleyasının üzvünü bu qanunsuz səfərdə müşayiət edən Fransanın Arnuvil şəhərinin meri, Sarsel şəhərinin nümayəndəsinə qarşı da Azərbaycana giriş qadağası tətbiq ediləcək. Fransa nümayəndələrinin bu məsuliyyətsiz və təxribatçı davranışı qəbuledilməzdir və bölgədə münaqişə sonrası sülh quruculuğu səylərinə xələl gətirir", - deyə Leyla Abdullayeva vurğulayıb.

# Əlaqələndirmə Qərargahının iclasında bir sıra vacib məsələlər müzakirə olunub




Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının və Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə keçirilən iclasda Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarının icrasına dair son vəziyyət təhlil edilib, qısamüddətli və uzunmüddətli perspektivdə qarşıda duran məqsədlər və onların həyata keçirilməsi ilə bağlı qurumlararası əlaqələndirmə məsələləri müzakirə olunub.

İclası giriş sözü ilə açan Samir Nuriyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə sürətlə həyata keçirilən genişmiqyaslı quruculuq işləri dünya miqyasında nümunəvi xarakter daşıyır. Bununla yanaşı, müəyyən olunmuş vəzifələrin yüksək keyfiyyətlə və daha operativ yerinə yetirilməsi üçün Qərargahın, habelə İdarələrarası Mərkəzin nəzdində fəaliyyət göstərən hər bir işçi qrupunun fəaliyyətinin konkret nəticələrin əldə olunması istiqamətində səfərbər edilməsi zəruridir.

Ümummilli prioritetlərdən biri olan bərpa və yenidənqurma işləri ilə bağlı səmərəliliyin yüksəldilməsi üçün gündəlik qurumlararası sıx əlaqələndirmənin, kompleks yanaşmanın və vəzifə funksiyalarının dəqiq bölgüsünün mütləq şərt olduğunu qeyd edən Qərargahın rəhbəri bu sahədə məsuliyyətin davamlı şəkildə artırılmasının vacibliyini diqqətə çatdırıb.

İclasda şəhərsalma, enerji təminatı, tarix və mədəniyyət abidələrinin bərpası, təhsil və səhiyyə xidmətlərinin planlı təşkili ilə bağlı məsələlər ətraflı müzakirə edilib, vəzifələrin icrası ilə əlaqədar növbəti addımlar müəyyən olunub və müvafiq tapşırıqlar verilib.

# *Ceyhun BAYRAMOV:* "Fransa Milli Assambleyasının bəzi üzvlərinin Azərbaycan ərazilərinə qanunsuz səfəri bölgədə münaqişə sonrası sülh quruculuğu səylərinə xələl gətirir"



Sentyabrın 16-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Fransa Respublikasının Avropa və Xarici İşlər Nazirliyinin Kontinental Avropa İdarəsinin direktoru Frederik Mondoloninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı tərəflər cari regional təhlükəsizlik vəziyyəti, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, beynəlxalq təşkilatlarla əməkdaşlıq və digər mövzular ətrafında müzakirələr aparıblar.

Tərəflər həmçinin Azərbaycan-Fransa ikitərəfli əməkdaşlıq gündəliyi üzrə fikir mübadiləsi aparıb və əməkdaşlığın inkişafı üçün mövcud potensialı qeyd edərək bu xüsusda qarşılıqlı marağı ifadə ediblər.

Nazir Ceyhun Bayramov Fransa Milli Assambleyasının bəzi üzvlərinin Azərbaycan ərazilərinə qanunsuz səfəri məsələsinə diqqəti yönəldərək bu kimi addımların bölgədə hazırda mövcud olan münaqişə sonrası sülh quruculuğu səylərinə xələl gətirdiyini qarşı tərəfin diqqətinə çatdırıb.

Görüşdə habelə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib




Sentyabrın 16-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin payız sessiyasında ilk onlayn iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclası açan Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli əvvəlcə Milli Məclisin 2021-ci il yaz və növbədənkənar sessiyalarında komitədə görülən işlər barədə məlumat verib.

Əli Hüseynli bildirib ki, hesabat dövründə komitənin 39 iclası keçirilib, 128 məsələyə baxılıb. Komitədə sessiya dövründə 55 qanuna əlavə və dəyişikliklər edilib və 1 qərar layihəsi müzakirə olunub. Bu qərar layihəsi İntizam komissiyasının əsasnaməsidir. Bildirilib ki, hesabat müddətində komitənin ünvanına daxil olmuş 246 məktub, təklif, ərizə və şikayətin 99-u araşdırılmaq üçün müvafiq təşkilatlara göndərilib. Sessiya ərzində komitə sədri və üzvləri təmsil olduqları parlamentlərarası əlaqələr üzrə işçi qrupları ilə onlayn qaydada görüşlər keçirib, bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə müzakirələr aparıblar, müharibədən sonrakı dövrdə ölkəmizin haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırıblar.

İclasda Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin 2021-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı da müzakirə olunub. Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid bildirib ki, iş planına 2022-ci ilin Milli Fəaliyyət Planından irəli gələn qanun layihələri, həmçinin QHT-lərin fəaliyyətini tənzimləyən qanunlara əlavə və dəyişiklik edilməsi haqqında bir sıra qanun layihələrinin müzakirəsi, "Məhkəmələr və hakimlər haqqında" qanunda dəyişiklik edilməsi və digər məsələlər daxil edilib.

Məlumat verilib ki, qarşıdakı sessiyada Azərbaycan Respublikası Prezidentinin, Ali Məhkəmənin, baş prokurorun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri layihələrin, dövlət büdcəsi zərfinə daxil olan sənədlərin, komitəyə daxil olacaq digər qanun layihələrinin müzakirəsi, onlara rəy və təkliflərin hazırlanması nəzərdə tutulub.

Məsələ ilə bağlı çıxış edən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri Erkin Qədirli və Tahir Kərimli yaz və növbədənkənar sessiyaların yekunları və payız sessiyasının işlər planı barədə öz fikirlərini bildiriblər.

Sonra iclasda gündəliyin sonuncu məsələsi olan Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "İcra haqqında", "Banklar haqqında", "Teatr və teatr fəaliyyəti haqqında", "Sığorta fəaliyyəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə birinci oxunuşda baxılıb.

Əli Hüseynli bildirib ki, təklif olunan dəyişiklik səhiyyədə icbari tibbi sığortanın tətbiqi, eyni zamanda onun dayanıqlı maliyyə təminatını yaradan icbari tibbi sığorta haqlarının müəyyən olunması və toplanması ilə bağlıdır. Bununla bağlı Mülki Məcəlləyə düzəliş edilərək onun 61-ci maddəsi yeni redaktədə verilir. Adları çəkilən digər qanunlarda da müvafiq dəyişikliklər edilir.

Sonra qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Onlayn iclasda komitə üzvləri Madər Musayev, Fəzail Ağamalı, Sabir Hacıyev, Vüqar İsgəndərov, Əminə Ağazadə, Kamal Cəfərov, Elşən Musayev, Cəbi Quliyev, Bəhruz Məhərrəmov və Nurlan Həsənov iştirak ediblər.

# Milli Məclis Sədrinin müavini seçiciləri ilə görüşüb



Sentyabrın 16-da Milli Məclis Sədrinin müavini Adil Əliyevin deputat seçildiyi 20 saylı Nərimanov ikinci seçki dairəsi ərazisində yaşayan seçiciləri ilə növbəti görüşü olub.

AZƏRTAC xəbər verir ki, pandemiya qaydalarına uyğun keçirilən görüşdə Adil Əliyev Vətən müharibəsindən ötən 10 ay müddətində işğaldan azad edilən ərazilərimizdə aparılan böyük abadlıq-quruculuq işlərindən söz açıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm Zəfər qazanan Azərbaycanın 30 illik işğala son qoyduqdan dərhal sonra öz əzəli torpaqlarında bərpa və yenidənqurma işlərinə başladığını deyib.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyətindən bəhs edən Milli Məclis Sədrinin müavini Heydər Əliyev Fondu tərəfindən mədəniyyət paytaxtımız Şuşada təşkil edilən tədbirlər barədə danışıb, bu istiqamətdə aparılan işlər barədə geniş məlumat verib.

Görüşdə seçicilərin müraciətlərinə həssaslıqla yanaşılıb, onların qaldırdığı sosial, məişət, humanitar xarakterli bir sıra məsələlər yerindəcə həll olunub. Digər xarakterli müraciətlərin həlli üçün aidiyyəti üzrə müxtəlif qurumlara məktublar ünvanlanıb. Görüş zamanı bəzi vətəndaşlara müraciətləri ilə bağlı qanunvericiliyin tələblərinə uyğun izahlar verilib.

Adil Əliyev yaranan fürsətdən istifadə edərək seçicilərinə koronavirus pandemiyası ilə əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargahın tələblərinə əməl etməyin zəruriliyini bildirib.

Tədbirdə Bakı şəhər Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini və digər vəzifəli şəxslər iştirak ediblər.

# Milli Məclisdə Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının təliminə dair Anlaşma Memorandumu yüksək qiymətləndirilib




Sentyabrın 16-da Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi payız sessiyasında onlayn formatda birinci iclasını keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda komitənin sədri Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2021-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə gördüyü işlər barədə hesabatı təqdim edib. O qeyd edib ki, hesabat dövründə komitədə keçirilən 11 iclasda 21 məsələyə baxılıb. O cümlədən "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" qanunlarda, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi"ndə və eyni zamanda, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin daxili xidmət Nizamnaməsi"ndə, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə və digər qanunvericilik aktlarında əlavə və dəyişikliklər edilməsinə dair günün tələbindən irəli gələn qanun layihələrinə, həmçinin "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında fövqəladə halların nəticələrinin qarşısının alınması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq olunmasına baxılıb. Milli Məclisin müzakirəsinə tövsiyə edilən qanun layihələrinin əksəriyyəti komitədə üç oxunuşdan keçib və parlamentdə qəbul olunub.

Hesabatda vurğulanıb ki, sessiya ərzində seçicilərin qayğıları diqqət mərkəzində saxlanılıb, komitəyə daxil olan 121 ərizə və şikayət araşdırılıb, aidiyyəti üzrə baxılıb tədbir görülməsi üçün müxtəlif ünvanlara 55 məktub göndərilib. Digər müraciətlər isə ictimai qaydada öz həllini tapıb.

Ziyafət Əsgərov qeyd edib ki, hesabat dövründə komitə üzvləri sosial şəbəkələrdə fəallıq göstəriblər, ordumuza dəstəklə, həmçinin ölkəmiz və xalqımız üçün taleyüklü məsələlərlə bağlı KİV-də sanballı məqalələrlə çıxış ediblər.

Sonra onlayn iclasda Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2021-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı müzakirə olunub.

Komitənin payız sessiyasında keçirilən ilk iclasında "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlıların təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsinə də baxılıb, sənədin əhəmiyyəti ətraflı şərh edilib.

Müzakirə zamanı komitə sədrinin müavini Hikmət Məmmədov, deputatlar Elman Məmmədov, Aydın Mirzəzadə, Arzu Nağıyev parlamentin yaz və növbədənkənar sessiyaları dövründə görülmüş işlər və payız sessiyası üçün iş planı barədə fikirlərini bildiriblər. Qardaş ölkələr olan Azərbaycanla Türkiyənin xüsusi təyinatlılarının təliminə dair Anlaşma Memorandumu yüksək qiymətləndirilib. Deputatlar komitənin işi ilə bağlı bir sıra təkliflərini nəzərə çatdırıblar.

Sonra "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlıların təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Komitənin iclasında deputatlar Bəxtiyar Sadıqov, Əminə Ağazadə, Elşad Mirbəşir oğlu, Erkin Qədirli, Nurlan Həsənov, Kamal Cəfərov və Aqil Abbas, Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycanın müdafiə naziri Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüş keçirib



Sentyabrın 16-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonra azad edilən ərazilərdə Ordumuz tərəfindən görülən işlər barədə məlumat verib.

Sonra Ermənistan-Azərbaycan dövlət sərhədində və Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki vəziyyət barədə danışan nazir Azərbaycan Ordusunun üçtərəfli bəyanatın tələblərinə tam əməl etdiyini bildirib. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində qanunsuz erməni silahlı dəstələri tərəfindən törədilən təxribatların qarşısının alındığı və bundan sonra da baş verə biləcək bu kimi hallara qarşı müvafiq tədbirlərin görüləcəyi xüsusi vurğulanıb.

Ermənistan tərəfinin vəziyyəti gərginləşdirməyə cəhd etməsinin qəbuledilməz olduğunu qeyd edən nazir beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə layiqli qiymət verilməsinin və müvafiq addımlar atılmasının vacibliyini bildirib.

T.Klaar bölgədə sülhün təmin olunması istiqamətində Avropa İttifaqının müvafiq dəstəyi göstərməyə hazır olduğunu qeyd edib.

Görüşdə həmçinin postmüharibə şəraiti və bir sıra digər məsələlər müzakirə olunub.

# “Üç qardaş-2021” beynəlxalq təlimi davam edir



Azərbaycan, Türkiyə və Pakistanın Xüsusi Təyinatlı Qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən Üç qardaş-2021” beynəlxalq təlimi davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin növbəti mərhələsində məhdud görmə şəraitində hava yolu ilə düşmən arxasına keçən xüsusi təyinatlı bölmələr gecə və gündüz, müxtəlif şəraitlərdə döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetiriblər.

“Üç qardaş-2021” beynəlxalq təlimi sentyabrın 20-dək davam edəcək.

# “TurAz Şahini - 2021” təlimlərinin bağlanış mərasimi keçirilib



Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin Konya şəhərindəki aviabazada keçirilən “TurAz Şahini - 2021” birgə taktiki təlimlərinin bağlanış mərasimi olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bağlanış mərasimində aviasiya bazasının komandiri general-mayor Öndər Şənsöz təlimlərdə iştirak edən şəxsi heyətə təbriklərini çatdıraraq onlara gələcək xidmətlərində uğurlar arzulayıb. Bildirilib ki, uğurla başa çatan təlimlərdə uçuş, texniki və təminat heyətləri böyük təcrübə qazanıblar. Hərbi pilotların döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılmasında bu kimi təlimlərin əhəmiyyəti xüsusi qeyd olunub və növbəti birgə təlimlərin keçirilməsinin zəruriliyi də əminliklə ifadə edilib.

Döyüş təyyarələrinin taktiki-texniki imkanlarından bacarıqla istifadə edərək təlimdə verilən bütün tapşırıqları peşəkarlıqla yerinə yetirən pilotların fəaliyyəti baza komandiri tərəfindən yüksək qiymətləndirilib.

Sonda iştirakçılara sertifikatlar təqdim edilib və xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, birgə təlimə Azərbaycan Hərbi Hava Qüvvələrinin iki “MİQ-29” qırıcı və iki “SU-25” hücum təyyarələri cəlb olunub.

# BMT-nin İnsan Hüquqları Şurasının iclasında Oxçuçay problemi müzakirəyə çıxarılıb

Oxçuçayın Ermənistanın dağ-mədən şirkətləri tərəfindən çirkləndirilməsi problemi Cenevrədə yerləşən Su, Ətraf Mühit və Sağlamlıq üzrə Qlobal İnstitutun (GIWEH) təşəbbüsü ilə BMT-nin 48-ci İnsan Hüquqları Şurasının ümumi debatlar sessiyasında müzakirəyə çıxarılıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, sessiyada Su, Ətraf Mühit və Sağlamlıq üzrə Qlobal İnstitutunun əməkdaşı Noa Kurri bu barədə çıxış edib.

Qurumun verdiyi bəyanatda deyilir ki, GIWEH bu addımla İnsan Hüquqları Şurasının və beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycanın Zəngilan rayonunun ərazisindən keçən və Araz çayına tökülən Oxçuçayda yaranmış ekoloji təhlükəyə və kritik vəziyyətə cəlb etmək istəyir. Qeyd edilib ki, suyun çirkləndirilməsi, tullantıların idarə edilməsi bölgədə çox ciddi bir problemə çevrilir, beynəlxalq birlik çirklənmənin qarşısının alınması və nəzarət edilməsi mexanizmini hazırlamalıdır.

Eyni zamanda diqqətə çatdırılıb ki, Rio Bəyannaməsinin ikinci prinsipində “digər dövlətlərin və ya ərazilərin milli yurisdiksiyasının hüdudlarından kənarda ətraf mühitə zərər verməmək” şərti ilə sahilboyu dövlətlərin su ehtiyatlarından istifadəyə dair hüquq və vəzifələrə sahib olduqları ifadə edilib.

Qurum beynəlxalq birliyi “İnkişaf hüquqlarına və heç bir əhəmiyyətli zərər verməmək öhdəliyinə” əsaslanan sabit və ədalətli qərarlar hazırlanmasına yardım etməyə çağırıb.

# Dünya Bankının hesablamalarına əsasən, Azərbaycan hökumətin rəqəmsallaşması səviyyəsinə görə yüksək mövqedədir

Azərbaycan Dünya Bankı tərəfindən hazırlanan “GovTech yetkinliyi indeksi”nin (GovTech Maturity Index - GTMI) cari il üzrə hesabatında yüksək nəticələr əldə edib.

Belə ki, 198 ölkəni qiymətləndirən indeksdə Azərbaycan rəqəmsallaşma səviyyəsinə görə ikinci pilləyə layiq görülərək yalnız ölkələrin 30 faizinin daxil ola bildiyi “hökumətin rəqəmsallaşmasına yüksək səviyyədə diqqət ayıran” adlandırılan və 59 ölkədən ibarət qrupda yer alıb. Bu qrupa Çin, Rusiya, Belarus, İrlandiya, Çexiya və digər ölkələr də daxil ediliblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının rəhbəri Məsumə Talıbova mövzunu şərh edərkən bildirib ki, “GovTech Yetkinlik İndeksi” rəqəmsallaşmada yeni termin olan “GovTech” (hökumətin rəqəmsallaşması) sahəsinin əsas aspektlərini ölçərək vətəndaşlara şəffaf, rahat və sürətli xidmətlər təqdim edə bilməsi üçün hökumətin rəqəmsallaşma səviyyəsini və modernizasiyasını qiymətləndirir. Bu sahədə prioritet istiqamətlər hökumət sistemlərinin təkmilləşdirilməsi, vətəndaşlara təqdim olunan xidmətlər paketinin genişləndirilməsi, vətəndaş iştirakının təmin olunması və bu sahədə dövlət strategiyalarının hazırlanması, dünya üzrə yaxşı nümunələrin tətbiqinin həyata keçirilməsidir.

Hökumət rəsmiləri (siyasətçilər və texniki mütəxəssislər), Dünya Bankının ekspert qrupları və “GovTech” həllərinin dizaynı və tətbiqi ilə məşğul olan özəl sektor nümayəndələri arasında keçirilən sorğular vasitəsilə dəyərləndirən GTMI hesabatı ölkənin həm cari vəziyyətini qiymətləndirməyə, həm gələcəyə dair potensialını ölçməyə, həm də bu sahənin təkmilləşdirilməsini həyata keçirmək üçün lazımi addımların müəyyənləşdirilməsinə və məsləhətlərin əldə olunmasına yardım edir.

“Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanda bir çox dövlət xidmətlərinin rəqəmsallaşdırılması (dövlət və özəl qurumlar tərəfindən 1000-dən artıq e-xidmətlər), “Bir pəncərə” konsepsiyasının tətbiqi - xüsusən Dövlət Xidmətləri Portalının yaradılması ilə 450-dən çox dövlət xidmətinin bir yerdə cəmləşdirilməsi, Rəqəmsal Ticarət Qovşağı Portalı vasitəsilə dövlət xidmətlərinin xaricdə yaşayan qeyri-rezidentlər üçün əlçatan olması, “monitorinq.az” portalı vasitəsilə dövlət proqramlarının qiymətləndirilməsinin rəqəmsallaşdırılması kimi islahatlar indeksin qiymətləndirmə meyarları arasında ən önəmli məsələləri əhatə etməklə ölkəmizin mövqeyinin yüksəldilməsinə də xidmət edib.

Bundan başqa, bu sahə üzrə islahatlar dayanıqlı formada davam etdirilir. Belə ki, Azərbaycan Prezidentinin cari il aprelin 27-də imzaladığı “Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” Fərman da iqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası istiqamətində ciddi tapşırıqları ehtiva edir”, - deyə Məsumə Talıbova bildirib.

# İƏT Ombudsmanlar Assosiasiyasının nümayəndə heyəti Şuşada törədilmiş vandalizm hallarının monitorinqini aparıb





Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın dəvəti ilə ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar assosiasiyasının (İƏT OA) prezidentinin rəhbərlik etdiyi və assosiasiyanın Baş katibi müşavirinin iştirakı ilə nümayəndə heyəti Şuşaya səfər edib. Nümayəndə heyətinin faktaraşdırıcı missiyasının əsas məqsədi Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olan Şuşada sosial obyektlər, mədəni-tarixi abidələrə qarşı törədilmiş vandalizm hallarının monitorinqini aparmaqdır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan mədəniyyətinin dahi simaları - Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün heykəllərini, eyni zamanda Yuxarı və Aşağı Gövhər ağa məscidlərini ziyarət edən nümayəndə heyətinin üzvləri Şuşada monitorinq keçiriblər. Onlar Ermənistanın 30 ildən artıq Azərbaycana qarşı yürütdüyü təcavüzkarlıq, işğalçılıq və terrorçuluq siyasəti dövründə mədəni-tarixi abidələrə qarşı törədilmiş vandalizm halları ilə bağlı yerində araşdırma aparıblar.

Şuşada həyata keçirilən monitorinq zamanı əldə edilmiş nəticələr əsasında hesabat hazırlanaraq beynəlxalq təşkilatlara göndəriləcək.

## Şərəf MALKOÇ: “Hesabatımızı BMT-yə və bütün insan hüquqları müdafiəçilərinə göndərəcəyik”

Şuşada olmaq böyük xoşbəxtlikdir. Sabah Ağdam və Tərtərə gedəcəyik. Ermənilər bu yerlərə çoxlu minalar basdırıblar. Bu isə çoxsaylı insan itkisinə və ya yaralanmasına səbəb olur. Ermənistan hələ də bu minaların xəritələrini verməyib. Səfərimizin məqsədi ondan ibarətdir ki, araşdırma aparaq və hesabat hazırlayaraq dünya ictimaiyyətinin Ermənistana təzyiq etməsinə, minalı ərazilərin xəritələrinin Azərbaycana verilməsinə nail olaq.

Bunu sentyabrın 16-da Şuşada səfərdə olan İƏT-in Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyənin Baş Ombudsmanı Şərəf Malkoç AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında deyib.

Şərəf Malkoç bildirib ki, Ermənistan 30 il boyunca işğal altında qalan Şuşa və ətraf ərazilərdə tarixi abidələri, əsərləri məhv edib. “Bunları yerində araşdırıb, həmin abidələri təkrar bərpa etmək üçün də hesabat hazırlayacağıq. Bu tarixi əsərlər 10 ilin, 100 ilin əsərləri deyil. Bu abidələr, sadəcə, azərbaycanlıların, yaxud Qafqaz xalqlarının deyil, dünyanın mədəni irsidir. Məqsədimiz bu mədəni irsi yenidən dünyaya qazandırmaqdır”, - deyə o vurğulayıb.

Bir müddət öncə İkinci Qarabağ müharibəsində Ermənistanın uzaq mənzilli raketlərlə atəşə tutduğu Gəncə və Mingəçevirdən də hesabat hazırladıqlarını xatırladan Şərəf Malkoç deyib: “İƏT-in Ombudsmanlar Assosiyası insan hüquqları qurumu olaraq, bu məsuliyyəti hiss edir. Hazırlayacağımız hesabatı BMT-yə və bütün insan hüquqları müdafiəçilərinə göndərəcəyik. Ümid edirəm ki, bunun müsbət təsiri olacaq”.

Qeyd edək ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın dəvəti ilə ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiyası prezidentinin rəhbərlik etdiyi və assosiasiyanın Baş katibi müşavirinin iştirakı ilə nümayəndə heyəti Şuşa şəhərinə səfər ediblər.

# Gəncədə tələbə adını qazanmış şəhid övladı ilə görüş keçirilmişdir



Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində hər iki valideynini itirən Sevil Əliyeva bu il tələbə adını qazanmışdır. Bu münasibətlə Gəncə Şəhər İcra Hakimiyyətində onunla görüş keçirilmişdir.

Görüşdə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev Sevil Əliyevanı tələbə adını qazanması münasibətilə təbrik edərək demişdir ki, Azərbaycanda şəhid ailələri daim dövlətin diqqət mərkəzindədir. Şəhid övladlarının bütün xalqın övladları olduğunu deyən Səməd Tomuyev bildirmişdir ki, onlar hər zaman bütün səviyyələrdə qayğıkeşliklə əhatə olunurlar.

Görüşdə iştirak edən şəhər Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev, Gəncə İş Adamları İctimai Birliynin sədri Zəfər Məmmədov və başqaları çıxış edərək Sevil Əliyevanı tələbə adı qazanması münasibətilə təbrik etmiş, ona Vətənə layiq övlad olmağı arzulamışlar.

Azərbaycan Dövlət Aqrar Universitetinin Aqrar iqtisadiyyat fakültəsinə qəbul olmuş Sevil Əliyevaya görüşün sonunda planşet hədiyyə edilmişdir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Dövlət Sərhəd Xidməti Xəzər dənizində taktiki təlim keçirib









Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin 2013-cü il 11 sentyabr tarixli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası”na əsasən, Dövlət Sərhəd Xidməti (DSX) dəniz sərhədlərinin etibarlı mühafizəsi, Xəzər dənizinin Azərbaycan sektorunda təhdidlərə qarşı səmərəli mübarizə fəaliyyətinin təmin olunması və dənizdəki şəraitdən müfəssəl şəkildə xəbərdar olma, müasir texniki imkanlardan istifadə etməklə döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması istiqamətində zəruri tədbirləri davam etdirir.

DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, sentyabrın 13-dən 15-dək “Xəzər dənizində Azərbaycan Respublikasının dəniz infrastrukturuna yönəlmiş terror-təxribat aktlarının qarşısının alınması zamanı Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən axtarış əməliyyatları keçirilməklə təxribat qruplarının zərərsizləşdirilməsi və dəniz təhlükəsizliyinin təmin olunması” mövzusunda taktiki təlim keçirilib.

Taktiki təlimdə Xidmətin Sahil Mühafizəsinin müasir naviqasiya və radiotexniki avadanlıqla, silah sistemləri ilə təchiz edilmiş sərhəd gözətçi gəmiləri, DSX-nin Xüsusi Hava Əməliyyatları Qüvvələrinin helikopterləri, pilotsuz uçuş aparatları, kütləvi qırğın silahlarının və onların komponentlərinin aşkarlanması və müəyyənləşdirilməsi üzrə xüsusi avadanlıqlar, dəniz kampaniyasına yeni qəbul edilmiş müşahidə, aşkaretmə təyinatlı sualtı aparatlar, yerüstü və dəniz əməliyyatlarında tətbiq üçün itisürətli amfibiya qayıqlar istifadə olunub.





Üç mərhələdə və yeddi taktiki epizod üzrə keçirilən təlimdə neftqazçıxarma rayonlarının, platformaların, boru kəmərlərinin mühafizəsi və müdafiəsi ilə bağlı DSX-nin Sahil Mühafizəsinin və Xüsusi Hava Əməliyyatları Qüvvələrinin gündəlik xidməti şəraitdən fövqəladə şəraitə keçirilməsi, enerji infrastrukturlarının mühafizəsi üzrə birgə sərhəd-axtarış əməliyyatlarının aparılması, enerji infrastrukturlarının mühafizəsi zamanı suüstü və sualtı hədəflərin aşkarlanması və məhv edilməsi, sahildə və dənizdə aşkarlanmış təxribat qruplarının zərərsizləşdirilməsi, saxlanılmış gəmiyə əsaslı baxışların keçirilməsi kimi təlim tapşırıqları uğurla icra olunub.

DSX Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin raket komplekslərindən, həmçinin zenit-artilleriya qurğularından dəniz və sahil hədəflərinə qarşı döyüş atışları müvəffəqiyyətlə həyata keçirilib, neft-qaz infrastrukturu istiqamətində təxribat qrupunu havadan dəstəkləyən pilotsuz uçuş aparatının, sualtı təxribat qruplarının və sahildə düşərgə qurmuş təxribat qruplarının aşkarlanması və məhv edilməsi, kütləvi qırğın silahlarının komponentlərinin müəyyənləşdirilməsi elementləri yüksək dəqiqliklə icra olunub.

Təlimdə qarşıya qoyulan vəzifələr tam həcmdə yerinə yetirilib, şəxsi heyət möhkəm intizam, yüksək döyüş hazırlığı və peşəkarlıq nümayiş etdirib.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev təlimlərin uğurlu yekunu və yüksək nəticələr münasibətilə şəxsi heyəti təbrik edib, Xəzər dənizində dövlət sərhədinin etibarlı mühafizəsinin, döyüş hazırlığının daha da yüksəldilməsinin, neft-qaz hasilatı və daşınması infrastrukturunun təhlükəsizliyinin təmin edilməsinin DSX-nin əsas vəzifələrindən olduğunu vurğulayıb, dənizdə sərhəd mühafizə imkanlarının təkmilləşdirilməsi və şəxsi heyətin peşəkarlığının artırılması üzrə tapşırıqlar verib.

# Azərbaycan - Türkiyə birliyinin şərəf salnaməsi



## Qardaşlığın Zəfər təntənəsi

### Azərbaycan-Türkiyə birliyinin gücü ilə artıq hər kəs hesablaşmağa məcburdur

*Əvvəli 1-ci səh.*

Beynəlxalq platformalarda, dövlətlərimizlə bağlı istənilən məsələlərdə daim birlik nümayiş etdirərək, bir-birinə dayaq duran iki qardaş ölkə - Azərbaycan və Türkiyə dövlətçiliyimizə, xalqlarımızın varlığına qarşı təhdid olan terrorizmə, işğal siyasətinə qarşı birlikdə mübarizə aparır. Eyni zamanda bütün təbii fəlakətlər, onların nəticələrinin aradan qaldırılması zamanı da daim bir-birinə dayaq, dəstək olurlar. Bütün bunlar isə iki ölkə arasındakı siyasi-diplomatik münasibətlərdən daha çox iki qardaş xalq arasındakı mənəvi bağlılığın göstəricisidir.

#### Azərbaycan - Türkiyə əlaqələri ən yüksək zirvədədir

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir: "Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun".

Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı tarixdə sadəcə sözdə deyil, əməldə nümunə olduğu kimi, bu gün də eynən belədir.

Vətən müharibəsi zamanı da Azərbaycan Türkiyənin siyasi, mənəvi dəstəyini ən yüksək səviyyədə hiss etdi. Türkiyə müharibənin ilk anlarından etibarən Azərbaycanın haqlı savaşının yanında olduğunu nümayiş etdirdi, son dərəcə böyük siyasi və mənəvi dəstək nümayiş etdirərək qardaşına dayaq oldu. Nə qədər beynəlxalq təzyiqlər olsa belə qardaş ölkə öz mövqeyindən bir addım da geri çəkilmədi.

Türkiyənin siyasi və mənəvi dəstəyi bu qələbənin qazanılmasında çox böyük rol oynadı.

10 dekabr 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər paradında iştirakı bir daha Azərbaycan-Türkiyə birliyini bütün dünyaya göstərdi.

Bu ilin 15 İyunu isə Azərbaycan-Türkiyə əlaqələri tarixinə daha bir əlamətdar gün kimi yazıldı. Azərbaycan Prezidenti Türkiyə Prezidentini Qarabağda qarşıladı və hər bir azərbaycanlının mənəvi paytaxtı hesab olunan Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında möhtəşəm Şuşa Bəyannaməsi imzalandı...

Türkiyənin böyük dəstəyini hazırda azad edilmiş torpaqlarımızda həyata keçirilən bərpa və quruculuq işlərində də yaxından hiss edirik və bu prosesdə Türkiyə şirkətləri fəal iştirak edirlər.

#### Sarsılmaz və əbədi birlik

Bu gün Azərbaycanın bölgələrində, eyni zamanda Bakının ən hündür nöqtəsində iki qardaş dövlətin - Azərbaycan və Türkiyənin övladlarının müqəddəs məzarlığı var. Orada Azərbaycanın müstəqilliyi, daim var olması uğrunda canlarından keçən iki qardaş xalqın şəhidləri uyuyur...

Əminik ki, indi həmin müqəddəs şəhidlərin ruhu şaddır, çünki Azərbaycanın döyünən ürəyi Qarabağ düşmən işğalından azad edilib.

Bu gün küçələrdə, meydanlarda, əllərdə, qardaş məzarlıqlarında dalğalanan üçrəngli və al qırmızı ay-ulduzlu qoşa bayraqlar yenidən bütün dünyaya var gücləri ilə zəfər nəğməsi hayqırır, Azərbaycan-Türkiyə birliyinin sarsılmazlığını, əbədiliyini nümayiş etdirirlər...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Bakının işğaldan azad olunmasının 103 illiyi münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində Bakının işğaldan azad olunmasının 103-cü ildönümü ilə bağlı silsilə tədbirlər keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri ifa olunub.

Hərbi qulluqçuların iştirakı ilə Şəhidlər xiyabanı və Türk şəhidliyi ziyarət olunub, abidələrin qarşısına əklil və gül dəstələri qoyulub.

Çıxış edənlər xalqlarımızın sarsılmaz birliyindən iftixarla danışıb, 103 il öncə Azərbaycan və türk əsgərlərinin Bakını işğaldan azad edərək Azərbaycan tarixinə şanlı səhifə yazdığından söhbət açıblar.

Hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri keçirilib.

## Onun adı Nuru paşaydı...

*Əvvəli 1-ci səh.*

#### Qafqaz İslam Ordusunun komandanı

Nuru paşanın hərbi xidmətinin ən mühüm dövrü isə Qafqaz İslam Ordusunun fəaliyyəti ilə bağlıdır. Bu, Osmanlı dövlətinin 1918-ci ilin mart-avqust tarixləri arasında yaratdığı Şərq Orduları Qrupuna daxil olan hərbi birliklər idi. O dövrdə Azərbaycandakı daşnak-bolşevik rejiminin türk-müsəlman əhalisinə qarşı törətdiyi amansız soyqırımlarından sonra qanlı cinayətlərin dayandırılmasından ötrü milli fəallar Osmanlı dövlətinə müraciət etmişdilər. Bakı yadellilərin əlində ən ağrılı günlərini yaşayırdı. Şəhərin azad edilməsi həyati əhəmiyyətli məsələlərdən idi. "Azadlıqdan öncə Bakı" deyən cümhuriyyət qurucuları buna görə yollar axtarır, ciddi müzakirələr aparırdılar. M.Ə.Rəsulzadə İstanbuldan Azərbaycan hökumətinə göndərdiyi məktubunda yazırdı: "Nəyin bahasına olursa-olsun Bakı tezliklə tutulmalıdır. Biz hamını baş vermiş fakt qarşısında qoymalıyıq. Bakıya doğru hərəkət mütləq Azərbaycan naminə olmalıdır, onu Azərbaycan hökuməti tutmalıdır. Əgər Bakı alınmasa, hər şey bitdi. Xudahafiz, Azərbaycan!"



Qafqaz İslam Ordusunun yaradılması məhz onda qərara alındı. Türkiyənin ozamankı hərbi naziri Ənvər paşa Azərbaycana yardım göstərilməsi üçün təşkilati tədbirlərə başladı. Bu barədə ilk qərarda bildirilirdi ki, Azərbaycana göndəriləcək türk zabitlərinin rəhbərliyi və iştirakı ilə birinci növbədə yerli milli qüvvələrdən ibarət ordunun formalaşdırılması nəzərdə tutulur. Onda Azərbaycana hərbi yardımın göstərilməsinə rəhbərlik Nuru paşaya həvalə edildi. Vəzifəsinin icrasına başlamazdan əvvəl ona feriq, yəni general-leytenant rütbəsi verildi. Nuru paşa bu rütbə ilə bütün Qafqaz İslam Ordusu hissələrinə komandanlıq vəkalətinə, Qafqazda türk sultanının siyasətini təmsil etmək hüququna malik idi.

Nuru paşa 1918-ci ilin martında öz qərargahının 20 nəfərlik heyəti və kiçik hərbi dəstə ilə Azərbaycana yollandı. Martın 25-də Mosula çatdılar. Aprelin əvvəllərində isə Mosul-Təbriz-Naxçıvan-Qarabağ və Yevlax-Gəncə yolu ilə Azərbaycana doğru istiqamət götürdülər. 1918-ci il mayın 24-də Yevlaxda, mayın 25-də isə Gəncədə Nuru paşanın təntənəli şəkildə qarşılanma mərasimi oldu. Onu da qeyd edək ki, Qafqaz İslam Ordusunun komandanı kimi Azərbaycana gələndə Nuru paşanın cəmi 29 yaşı var idi və o, bura Afrika cəbhəsindən çağırılaraq göndərilmişdi. Nuru paşa tamamilə fərqli olan, dolaşıq, ziddiyyətli siyasi hadisələrin cərəyan etdiyi bir şəraitə düşmüşdü və burada gedən proseslərə bütünlüklə bələd olmaq üçün müəyyən vaxt lazım idi.

Tarixi faktlardan məlum olur ki, o, Azərbaycandakı hərbi-siyasi vəziyyətlə tanışlıqdan sonra bolşevik-daşnak qüvvələrinin müqavimətini tamamilə qırmaq üçün qısa müddətdə milli-hərbi strukturların formalaşdırılmasının qeyri-mümkün olduğunu görür. Bu barədə 3-cü ordu komandanı Vehib paşaya təcili məlumat ötürür. Dövlət orqanları qarşısında Azərbaycana türk hərbi qüvvələrinin göndərilməsi barədə məsələ qaldırmasını ondan xahiş edir. Hərbi yardımı rəsmiləşdirmək məqsədilə 1918-ci ilin 4 iyununda Batumda iki dövlət arasında qarşılıqlı kömək haqqında müqavilə imzalanır. Yalnız bundan sonra Nuru paşanın vəsatəti əsasında 5-ci Qafqaz firqəsi Azərbaycana göndərilir. 12-14 min osmanlı əsgərindən ibarət olan Qafqaz İslam Ordusunun Azərbaycan türklərindən ibarət könüllülərin də qatılması ilə sayı təqribən 20 minə çatır.

Nuru paşa artıq həm türk və Azərbaycan hərbi hissələrindən təşkil edilmiş Qafqaz İslam Ordusunun komandanı idi, həm də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə milli hərbi qüvvələrin formalaşdırılmasına rəhbərlik edirdi. Onun qarşısında duran əsas vəzifələr Bakı Sovetinin bolşevik-daşnak silahlı birləşmələrini tərksilah etmək, erməni dəstələrinə qarşı mübarizənin təşkilini genişləndirmək, Azərbaycanın milli hərbi hissələrinin formalaşdırılmasını sona çatdırmaq və Qafqaz İslam Ordusunun komandanlığı altındakı qüvvələrin təchizat və təminat məsələlərinin həllinə nail olmaq idi. Nuru paşa çox həssas taktiki gedişə və çevik hərbi duyuma malik idi. Bu isə təcrübəli komandana tapşırılmış bütün hərbi vəzifələrin öhdəsindən bacarıqla gəlməsinə imkan yaradırdı. O dövrdə Azərbaycan xalqı və hökuməti də Nuru paşaya böyük dəstək göstərirdi. Belə bir dəstəklə onun komandanlığı altındakı qüvvələr qısa vaxtda Gəncədən Bakıya qədər çox uğurlu döyüş yolu keçdilər. Və böyük bir qəhrəmanlıq salnaməsi yaratdılar.

Qafqaz İslam Ordusu Bakını daşnaklardan, eserlərdən və ingilislərdən təmizlədi, şəhəri Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi paytaxtına çevirdi, ölkəni təhlükədən xilas etdi və nəzarəti yeni yaradılmış hökumətin sərəncamına verdi.

15 sentyabr hadisəsi 28 mayda istiqlaliyyətini elan etmiş Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin təsdiqi idi. Baş nazir Fətəli xan Xoyski parlamentin dekabrın 7-də olan açılışındakı nitqində bu barədə deyirdi: "...Türkiyə həmdinimiz, həmvətənimiz idi. Ona görə ondan kömək istədik... Böyük zəlalət bu idi ki, hökumətimiz hədər olan kimi idi. Çünki hürriyyət, ədalət və qardaşlıq bayrağı daşıyan firqələr Bakını əlimizdən almış, bizi paytaxtsız buraxmışdı. Azərbaycanın ürəyi, paytaxtın sahibi olan müsəlman milləti qətliam edilmişdi. Başbilənlər Dağıstan, İran və Turana dağılmışdılar... Türkiyəyə müraciətimizin əsl səbəbi də paytaxtımızın əlimizə qaytarılması idi. Bu barədə çox əziyyətlər çəkildi. İndi şükürlər olsun ki, məqsədimizə çatdıq, Bakı əlimizə keçdi. Bu, indi xırda bir şey görünür. Amma o zəlalət yada gətirilsə, nə qədər əziyyət çəkdiyimiz anlaşılar. Bəlkə vəzifəmizi layiqincə icra etmədik. Bəlkə boynumuzda böyük günahlar var. Amma o zəhmətimiz nəzərə alınsa, təqsirimiz bir az yüngülləşər..." Bakıda bolşevik hakimiyyətini zəlalət günləri kimi təsvir edən Fətəli xan hökumət başçısı kimi həmin günlərdə vəziyyətin necə acınacaqlı olduğunu ürəkağrısı ilə təsvir edirdi.

#### Həbsxanaya basqın

Tarixi faktlara istinadən döyüşlərin getdiyi müddətdə Nuru paşa Əlahiddə Azərbaycan Korpusunun komandiri Əliağa Şıxlinski ilə birlikdə üç dəfə eyni cəbhə xəttində olmuşdu. Onlar 1918-ci il iyunun 18-də Qaraməryəm cəbhəsində, iyulun 5-də Ağsu cəbhəsində, sentyabrın 10-da isə Bakı cəbhəsində iştirak etmişlər. Bu döyüşlər zamanı qüvvələrin yenidən səfərbərliyə alınmasında, döyüş planlarının taktiki baxımdan təkmilləşdirilməsində Nuru paşa müstəsna rol oynamışdı.

1918-ci il sentyabrın 15-də Bakının azad edilməsi üçün hazırlanmış həlledici hücum əməliyyatının planı da türk komandanı tərəfindən hazırlanmışdı. Şəhər azad edildikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Fətəli xan Xoyski Nuru paşaya minnətdarlığını və təbrikini çatdırmışdı: "Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətim, zati-həmiyyəti-pərvəranələrizə və dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edərim".

Qarabağın erməni silahlı dəstələrindən təmizlənməsinə başlamazdan əvvəl 1918-ci il oktyabrın 1-də Nuru paşa Ağdama gəlir. Döyüşlərə hazırlaşan türk-Azərbaycan hərbi qüvvələrinin vəziyyəti ilə yaxından tanış olur, müəyyən tövsiyələrini verir, taktiki hazırlıqların gedişi ilə maraqlanır. Böyük güclə hücuma keçib Şuşaya daxil olur, şəhərdə Azərbaycanın bayrağını qaldırır, müdafiə mövqelərini möhkəmləndirir. Lakin o, Türkiyənin Birinci Dünya müharibəsində məğlubiyyəti və Bakıya ingilis qoşunlarının daxil olması ilə əlaqədar olaraq 1918-ci il noyabr ayının 17-də başladığı əməliyyatları yarımçıq qoyub Türkiyəyə qayıdır.

Əslində Nuru paşa Azərbaycanda qalıb fəaliyyətini davam etdirməyi çox istəyirdi. Lakin Mudros sülh müqaviləsinin şərtlərinə əsasən, türk hərbi qüvvələri bölgəni tərk etməyə məcbur idilər. Buna ingilis komandanlığı imkan vermirdi. Nuru paşa noyabrın sonlarında Gəncəyə gəlir. Həmin ayın 29-da Gəncə bələdiyyəsində türk generalının və onun xidmət yoldaşlarının yola salınması münasibətilə ziyafət verilir. Nuru paşa bu ziyafətdə çıxış edib, türkçülük və turançılıqla bağlı geniş nitq söyləyir.

O, İstanbula qayıdır. Təqiblərə məruz qalan cəsur komandan orada hərbi nəzarət polisi tərəfindən həbs olunub ingilislərə təhvil verilir. Nuru paşa İstanbuldan Batum həbsxanasına gətirilir. İngilislər onlara qarşı vuruşduğuna və Azərbaycanda göstərdiyi hərbi şücaətə görə Nuru paşa barəsində edam qərarı çıxarırlar. Azərbaycan milli azadlıq hərəkatının fəalları Nuru paşanın rəsmi müraciətlər yolu ilə azadlığının mümkünsüz olduğunu görəndə Batum həbsxanasına silahlı basqın edib onu həbsdən qaçırmağı qərara alırlar. Bu məqsədlə Batuma xüsusi dəstə göndərilir. 1919-cu ilin yanvar ayında həmin dəstə Batum həbsxanasına basqın edir. Əməliyyat zamanı itki verilsə də, Nuru paşanı azad etmək mümkün olur.

1920-ci ilin aprelində bolşeviklərin Azərbaycanı işğalı ərəfəsində Nuru paşa Dağıstanda fəaliyyət göstərməyə başlayır. Bolşevik işğalına qarşı yerli müqavimət qüvvələrinin formalaşdırılmasına çalışır. Bir müddətdən sonra o, yenidən Azərbaycana dönür. 1920-ci ildə Qarabağda bolşeviklərə qarşı alovlanan xalq üsyanının əsas rəhbərlərindən olur. Üsyan yatırıldıqdan sonra isə yenidən Türkiyəyə gedir.

Nuru paşa fəal zabitlik karyerasını, demək olar ki, Azərbaycanda tamamlayır. Buradakı fəaliyyəti Nuru paşanın bir zabit kimi ömrünün qürur dolu anları idi. Yaxınlarının xatirələrinə görə Nuru paşa özü də sonrakı həyatı boyu həmişə Azərbaycandakı fəaliyyətini xoş duyğularla, fəxarət hissi ilə yada salır, dostları ilə bölüşürdü.



#### Həzin bir xatirə

Nuru paşanın Azərbaycanda keçirdiyi günlərin bir həzin xatirəsi də var. Bakıda ikən o, şəhərin ən zəngin şəxsi Hacı Zeynalabdin Tağıyevin evində tez-tez qonaq olardı. Bu gənc zabit Hacı Zeynalabdinin qızı Sara xanıma vurulmuşdu. Onunla ailə qurmaq istəyirdi. Bu niyyətini Hacıya bildirəndə məşhur mesenat qızının Azərbaycandan uzaq düşməməsi üçün belə bir izdivaca razılıq vermir. Bu məqamı Sara xanım da xatirələrində yada salardı.

Nuru paşa çox gec - ölümündən cəmi üç il əvvəl 1946-cı ildə ailə qurmuşdu. Həyat yoldaşı Misirin saray ailəsindən olan İffət xanımın qızı Misli Mələk xanım idi. Onunla evlənəndə Nuru paşanın 56, Misli Mələk xanımın isə 45 yaşı vardı. Misli Mələk xanım həyat yoldaşından 40 il sonra 1989-cu ildə dünyasını dəyişdi.

...Türkiyəyə qayıdandan sonra Nuru paşanın həyatı ilk illər ağır sıxıntılar içində keçirdi. Orta Asiyada şəhid olmuş qardaşı Ənvər paşanın Berlində yaşayan ailəsinin - həyat yoldaşı Naciyə xanım və üç övladının qayğıları da onun üzərinə düşürdü. Güzəran qayğılarını yoluna qoymaq üçün Nuru paşa 30-cu illərdən sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başladı. Zamanla işini genişləndirdi. Bir neçə ildən sonra artıq İstanbulun Sütlücə adlanan yerində onun dəmir tökmə işləri ilə məşğul olan zavodu vardı. Zavodda hərbi təyinatlı məhsullar da istehsal olunurdu. Əfsuslar olsun ki, Nuru paşanın həyatı elə bu zavodda başa çatdı. 1949-cu il martın 2-də, çox güman ki, texniki normalara düzgün riayət edilməməsi səbəbindən zavodda baş verən partlayış nəticəsində həmin vaxt zavodun dəftərxanasında olan Nuru paşa həyatını itirdi.

Onun 1918-ci ildə Qafqaz İslam Ordusunun komandanı kimi yaratdığı qəhrəmanlıq dastanı isə unudulmadı. "Onun adı Nuru paşaydı, şahin tək süzərdi..." misrası ilə başlanan nəğmələr bolşeviklərin qılıncının ən kəsərli vaxtlarında da xatirələrdə işıq zərrəsi kimi parladı. Dildən-dilə dolaşaraq nəsillərdən-nəsillərə yetişdi. Və təxminən bir əsrdən sonra Azərbaycanın Vətən müharibəsindəki zəfəri, Azərbaycan-Türkiyə qardaşlığının, bir-birinə güvəninin təntənəsi ilə Nuru paşanın da ruhu şad oldu. Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıda - Azadlıq meydanında birgə qəbul etdikləri qələbə paradında qoşa addımlayan Azərbaycan və Türkiyə əsgər və zabitlərinin yaratdığı qürur mənzərəsində Nuru paşanın əbədi abidəsi də ucaldı.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

◆ Müəllifi İlham Əliyevdir

# Hər iş ASAN, hər kəs məmnun

## Prezident İlham Əliyevin 5 il öncə açılışını etdiyi Qəbələ "ASAN xidmət" mərkəzinə indiyədək 700 mindən artıq müraciət daxil olub

Əvvəli 1-ci səh.



Mərkəzə daxil olarkən diqqətçəkən ilk məqam dezinfeksiya qaydalarına ciddi əməl edilməsi oldu. Əvvəlcə xüsusi aparatla hərarət yoxlanılır, sonra əllər spirtlənir. Bundan sonra kompüter arxasında əyləşən mərkəzin əməkdaşları tibbi maskadan istifadə etməklə, ara məsafəsini qorumaqla vətəndaşlara operativ xidmət göstərirlər.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyevlə mərkəzin fəaliyyəti ilə bağlı söhbətimizdən bəlli oldu ki, buranın tikintisinə 2014-cü ildə başlanılıb və 2016-cı ildə tikinti başa çatıb. Bu, Azərbaycanın sayca 10-cu "ASAN xidmət" mərkəzidir. Mərkəz fəaliyyətə başladığı gündən Qəbələ, İsmayıllı, Oğuz, Şamaxı, Zaqatala, Balakən, Zərdab, Ucar, Şəki və Qax rayonlarının əhalisinə xidmət göstərib. Şəki, Şamaxı və Balakən rayonlarında "ASAN xidmət" mərkəzlərinin açılışından sonra Qəbələ regional mərkəzin, belə demək mümkündürsə, yükü bir qədər azalıb.

5 illik fəaliyyəti dövründə mərkəzə ümumilikdə 700 minə yaxın vətəndaş müraciəti daxil olub. Eyni zamanda səyyar "ASAN xidmət" avtobusu vasitəsilə Qəbələ, İsmayıllı, Oğuz, Şamaxı, Zaqatala, Balakən, Zərdab, Ucar, Şəki və Qax rayonlarının kənd və qəsəbələrində 220 minə yaxın müraciətə baxılıb.

Binanın birinci mərtəbəsində ana və uşaq otağı, könüllülərin masası, kommunal xidmətlər, hüquqi yardım, laboratoriya, tibb məntəqəsi, gözləmə zalı, saxlama kamerası, uşaq əyləncə mərkəzi, hüquqi yardım və yardımçı funksional xidmətlər mövcuddur. İkinci-üçüncü mərtəbələrdə bank, sürücülük vəsiqəsinin dəyişdirilməsi, şəxsiyyət vəsiqəsi və ümumvətəndaşlıq pasportunun verilməsi və dəyişdirilməsi, hərbi səfərbərlik, qida təhlükəsizliyi, miqrasiya xidməti, lisenziyaların alınması, vergi xidmətləri, əmək pensiyalarının təyin olunması, arxiv arayışlarının verilməsi, daşınmaz əmlakın qeydiyyatı, notariat, gömrük bəyannamələrinin hazırlanması xidmətləri həyata keçirilir. Dördüncü mərtəbədə isə əməkdaşlar üçün kitabxana, konfrans zalı, xidməti istirahət otaqları var.

Mərkəzin fəaliyyəti ilə tanışlığa ilk olaraq Məlumat xidmətindən başlayırıq. İçəri daxil olan vətəndaşlar öncə burada çalışan əməkdaşlara yaxınlaşıb istəkləri ilə bağlı müraciət edirlər. Əməkdaşlar vətəndaşların sənədlərini yoxladıqdan sonra onlara hansı xidmət üçün müraciət etməli olduqlarını aydınlaşdırırlar. Beləcə, hər kəs asanlıqla istənilən xidmətdən yararlana bilir.

Məlumat xidmətinin əməkdaşı Lalə Şərifzadə 3 ildir burada çalışır. O deyir ki, əvvəlcə mərkəzdə könüllü kimi çalışıb. "ASAN Könüllülük" Məktəbinin "Master-1" və "Master-2" pillələrini başa vurub: "Könüllülük fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə təşkil olunan bu pillələr üzrə geniş təcrübə topladım. Sonra mənə böyük etimad göstərildi və məlumat mərkəzində çalışmağa başladım. Fəaliyyət göstərdiyim müddətdə qüsursuz çalışmaq üçün bütün gücümü səfərbər etdim. Çox şadam ki, bu gün burada vətəndaşlarımıza nəzakətli və asan xidmət göstərirəm".

Lalə deyir ki, əvvəllər mərkəz 10 rayonun əhalisinə xidmət etdiyi üçün müraciətlər çox olurdu. Ancaq buna baxmayaraq, onlar hər zaman vətəndaşları gülərüzlə qarşılayıb, təmkinlə dinləyib, nəzakətlə xidmət ediblər.

Mərkəzin digər əməkdaşı Yeganə Nəzirli isə 2 ildir burada vətəndaşların xidmətindədir. Yeganə deyir ki, istər işlərində, istərsə də vətəndaşlarla ünsiyyətdə heç bir çətinlik olmur. Karantin rejiminin tələblərinə ciddi əməl etməklə fəaliyyətlərini davam etdirirlər: "Vətəndaşlar da başa düşürlər ki, məsafə saxlamaq mütləqdir və hər kəs bir-birini anlayışla qarşılayır. Bu, əlbəttə ki, ilk növbədə, hər birimizin sağlamlığının qorunmasına xidmət edir. Çalışırıq ki, vətəndaşlar işimizdən məmnun qalsınlar. Bir sözlə, operativlik, şəffaflıq, nəzakətlilik prinsipləri əsasında fəaliyyətimizi uğurla davam etdiririk".

### "ASAN" könüllülərinin prinsipi - mehriban münasibət, mərhəmət, xeyirxahlıq

Könüllülər "ASAN xidmət"in fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidirlər. Bu prosesə ümumilikdə 27000-dən çox könüllü gənc qoşulub. Bu günə kimi könüllülər tərəfindən 3000-dən çox təlim, 650-dən çox layihə həyata keçirilib və 2700-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub.

Qəbələ regional "ASAN xidmət" mərkəzində isə indiyədək 800 nəfərə yaxın könüllü məzun olub. Hazırda isə burada 30 könüllü çalışır. Bu dövr ərzində könüllülərin iştirakı ilə müxtəlif sosial layihələr, teatr tamaşaları, idman yarışları, intellektual oyunlar, xeyriyyə aksiyaları keçirilir, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunub.











Hər mərkəzdə olduğu kimi, buradakı könüllülər arasında da səmimi, mehriban münasibət var. Ümumiyyətlə, könüllülük mərhəmət, xeyirxahlıq, ədalət hissi deməkdir. Könüllülər ümid yeri olmaq, savab qazanmaq, xalqına, vətəninə xidmət etmək prinsipi ilə fəaliyyət göstərirlər.

Gənclərlə söhbət zamanı bəlli oldu ki, onların əksəriyyəti burada təcrübə toplayıb "ASAN xidmət" mərkəzlərində çalışmaq niyyətindədirlər.

Gülçin Qəribova, Fidan Vəlixanlı, Aysel Abduləzimova, Gülay Mikayılova iki aydır ki, könüllü kimi fəaliyyətə başlayıblar. Onlar, ilk növbədə, burada çalışmaqla təcrübə toplamaq istəyirlər. Fikirlərinə görə, könüllü olmaq dünyagörüşün artırılması üçün çox mühümdür. Burada könüllü kimi işləməklə həm də səbirli davranmağı, daha nəzakətli, diqqətli olmağı da öyrənirsən. Həmsöhbətlərimiz bu qənaətdədirlər ki, insanlara təmənnasız xidmət, kömək etmək, əl tutmaq, onun sevincinə şərik olmaq həm savabdır, həm də xoş bir duyğudur. Gənclər könüllülük fəaliyyəti nəticəsində əldə etdikləri təcrübə, bilik və bacarıqların gələcəkdə onların peşəkar kimi formalaşmalarına kömək edəcəyini də bildirdilər.

### 5 yaşlı Sevginin sevinci, 10 dəqiqəyə dəyişdirilən sürücülük vəsiqəsi

Gənclərə uğurlar arzulayıb müxtəlif məsələlər üzrə mərkəzdəki xidmətlərdən yararlanmaq üçün buraya təşrif buyuran vətəndaşlarla söhbətləşirik.

Şəxsiyyət vəsiqəsinin verilməsi xidməti bölməsindəki masada əyləşib önündəki aparata maraqla tamaşa edən balaca qızcığaz diqqətimizi çəkir. Gah xidmətin xanım əməkdaşına, gah da çönüb kənarda dayanan valideynlərinə baxır. Atası Valeh Nəsrullayev deyir ki, qızı Sevginin 5 yaşı tamam olduğu üçün məktəbəqədər hazırlığa getməlidir. Bunun üçün isə məktəbdən şəxsiyyət vəsiqəsi tələb olunur. Gəlişlərinin də məqsədi 5 yaşlı Sevgiyə yeni şəxsiyyət vəsiqəsi almaqdır: "Bura elə bir məkandır ki, uşaq da özünü rahat hiss edir. Əməkdaşlar elə rəftar edirlər ki, uşaq nə desə, ona da əməl edirlər. Başqa vaxtı şəkil də çəkdirməkdən çəkinən uşaq burada yeni aparatın qarşısında elə oturur ki, elə bil böyük adamdır. Həqiqətən də, buraya işə qəbul edərkən çox təmkinli, gülərüz, mehriban gəncləri seçirlər. Onlar təmkinlə hamını dinləyir, çox yaxşı xidmət göstərirlər. Ona görə də "ASAN xidmət"dən çox razıyıq. Tək biz yox, hamı razılıq edir. Hələ bir adam görməmişəm ki, buradan narazı qayıtsın".

İsmayıllı rayon sakini, 54 yaşlı Xalid Cəlilov isə sürücülük vəsiqəsinin vaxtının bitməsinə az qaldığı üçün onu dəyişdirmək məqsədi ilə xidmətə gəlib. Onun müraciəti ilə yeni sürücülük vəsiqəsinin dəyişdirilməsi cəmi bir neçə dəqiqə çəkib. İşinin necə asan həll olunmasının sevincini isə belə bölüşdü: "Vallah, belə xidmət heç bir yerdə yoxdur. Yeni vəsiqənin alınması cəmi 10 dəqiqə çəkdi. Sənədi xanıma təqdim etdim. Sonra banka yaxınlaşıb 25 manat 40 qəpik dövlət rüsumunu ödəyib qəbzi gətirdiyim an sürücülük vəsiqəmin hazır olduğunu gördüm. Belə rahat, asan iş hər bir vətəndaşı məmnun edir. Başqa vaxtı günlərlə qapılarda qalırdıq, bəzən rüşvət istəyirdilər, süründürürdülər. İndi hər iş şəffafdır. Dövlət vətəndaşın rahatlığı üçün nə lazımdırsa edir".

Rayon sakini, 67 yaşlı Elşən Məmmədovla mərkəzin qarşısında söhbətləşərkən eyni sözlərin şahidi olduq. Ağsaqqal deyir ki, kənd camaatının hər zaman hansısa sənədi düzəltdirməyə vaxtı olmur. Ona görə əvvəllər çox çətinlik çəkmişik. İndi isə nə zaman "ASAN xidmət"ə gəlsələr, istənilən sənədi ala bilirlər. Yəni indi bir neçə dəqiqəni sərf etməklə işini həll edib geri qayıda bilərsən: "Çox rahat və asan iş gedir. Biz də xidmətdən məmnunuq. Belə işdən niyə razı qalmayasan? Çox rahatdı, biz buna görə dövlətimizdən, ölkə rəhbəri İlham Əliyevdən çox razıyıq. Hər dövlət başçısı xalq üçün bu cür rahat şərait yarada bilmir".

### 99,5 faizlik məmnunluq əmsalı

Aydın göründü ki, vətəndaşlar hətta karantin dövründə də şəffaf və operativ xidmət göstərən "ASAN xidmət" mərkəzlərinin işindən böyük razılıq edirlər. Bu mərkəzlər illərdir fəaliyyət göstərir və xidmətlərinin səviyyəsi aşağı düşmür. Bu da onu göstərir ki, qlobal pandemiya ilə mübarizə şəraitində belə vətəndaşlara operativ xidmət göstərilməsi dövlətin vətəndaşa qayğısının real təzahürüdür.

Hazırda "ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət təşkilatları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət göstərilir. "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət göstərilir.

Bu gün ölkəmizdə 21 "ASAN xidmət" mərkəzi fəaliyyətdədir. Onlardan 6-sı Bakı şəhərində, digərləri isə Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir.

Elnur Niftəliyev deyir ki, Bakıda daha 1 "ASAN xidmət" və 1 "ASAN kommunal" mərkəzinin açılışı planlaşdırılır. Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur.

Bu günədək "ASAN xidmət" mərkəzlərinə 7 milyon 550 mindən çox vətəndaşın 46 milyon 470 mindən artıq müraciəti daxil olub.

Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyun ayından etibarən 2 milyon 411 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Elə Qəbələ "ASAN xidmət" mərkəzində apardığımız müşahidələrə, vətəndaşlarla etdiyimiz söhbətlərə əsaslanaraq deyə bilərik ki, hər kəs bu xidmətin fəaliyyətindən razılıq edir. "ASAN xidmət" mərkəzinə daxil olarkən insanlarda sanki bir özgüvənlik hiss olunur. İşlərini bitirib mərkəzdən ayrılarkən simalarındakı təbəssüm, xoş cizgilər onların məmnunluğundan xəbər verir. Bu, İlham Əliyevin milli brend kimi yaratdığı "ASAN xidmət" mərkəzlərinin missiyalarına sadiqliyinin bariz təcəssümüdür.

### Qələbəni bizə yaşadanları "Birlikdə yaşadaq"

İnsan üçün ən dəyərli nemət öz canıdır. Amma bu candan daha əziz bir şey də var ki, o da Vətəndir, onun uğrunda şəhid və qazi olmaq özü bir şərəfdir. Bu gün Azərbaycanın elə bir bölgəsi, elə bir kəndi tapılmaz ki, orada bir şəhid məzarı olmasın. Onları yaşatmaq, tanıtmaq, şəhid ailəsinə hörmətlə yanaşmaq, şəhidlik zirvəsinə ucalanların xatirəsini əbədiləşdirmək, onları gəncliyə nümunə göstərmək hər birimizin vətəndaşlıq borcudur.

Elə "ASAN xidmət" mərkəzində olduğumuz zaman "YAŞAT" Fondunun təşkilatçılığı ilə reallaşan "Birlikdə yaşadaq" tədbiri də bu məqsədlərə xidmət edən xeyriyyə marafonu idi.

Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli fərmanı ilə yaradılan "YAŞAT" Fondunun əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir.

Qəbələdə keçirilən tədbirdə "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, idarə və müəssisələrin rəhbər şəxsləri, sahibkarlar və digər qonaqlar iştirak edirdilər.

Tədbirdə vurğulandı ki, bundan öncə "Birlikdə yaşadaq" tədbiri Tovuz, Şamaxı, İmişli və Şəki şəhərlərində keçirilib. Artıq bu tədbir silsilə xarakteri alıb və sayca 5-ci tədbir Qəbələdə reallaşıb. Tədbir çərçivəsində mərkəzdə "ASAN xidmət" könüllüləri tərəfindən hazırlanmış incəsənət nümunələrinin sərgisi və satışı təşkil olunub.

"Birlikdə yaşadaq" tədbirinin keçirilməsinin məqsədi sərgi-satışdan toplanmış məbləği "YAŞAT" Fonduna köçürməklə şəhid ailələrinə və yaralanan hərbçilərə dəstək olmaqdır.

Sərgidə rəsm əsərləri nümayiş olunan "ASAN" könüllüləri çox sevincli görünürdülər. Çünki onların çəkdikləri əsərlər çox yüksək dəyərləndirilirdi. Bəlkə də həyatlarında ilk dəfə öz zəhmətləri ilə əldə etdikləri vəsaitlər şəhid ailələri üçün ianə edilirdi. Bu da Azərbaycan gəncliyinin necə vətənpərvər ruhda böyüməsini göstərən mühüm amillərdən biridir.

Hər hansısa rəsm əsərini bəyənən şəxs onu götürüb üzərinə yazılan dəyəri elə oradaca "ASAN" ödəniş terminalı və "million" aparatları vasitəsi ilə "YAŞAT" Fondunun hesabına köçürürdü.

Bu mərasimdəki qələbəlik bir daha göstərdi ki, ölkə ictimaiyyəti şəhidlərimizi hər zaman ehtiramla anır, onların yadigarlarının xoşbəxt yaşaması üçün nə lazımdırsa edir. Prezident İlham Əliyevin yaratdığı "YAŞAT" Fondunun fəaliyyət göstərdiyi müddətdə gördüyü işlər də təqdir edilir. Fonda toplanan ianələr tam şəffaf şəkildə şəhid ailələri və qazilərin ehtiyacları üzrə xərclənir və mütəmadi olaraq ictimaiyyətə məlumat verilir, qurumun saytında hesabatlılıq təqdim edilir.

Bütün bunlar bir daha təsdiq edir ki, dövlət şəhid ailələri, müharibə əlilləri, qazilərimizin sosial şəraitinin yaxşılaşdırılması, mənzilməişət, avtomobil təminatını, onların müalicəsi üçün bütün lazımi tədbirləri həyata keçirir və hər zaman bu məsələləri diqqət mərkəzində saxlayır.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# SADƏ, amma QƏTİ

## İlham Əliyevin dövlət məmurlarından tələbi:

## "Nümunə göstərmək, insanlarla bir yerdə olmaq, əhalinin qayğısına qalmaq"

Əvvəli 1-ci səh.

Azərbaycan xalqı cəbhəyə gedən oğullarını elliklə, toy-bayramla yola salırdı və ondan daha təmtəraqla, daha böyük izdihamla şəhidlərini qarşılayırdı. Analarımız, bacılarımız, qız və gəlinlərimiz gözyaşlarını gizlədirdilər, kişilər oğul dərdini, qardaş itkisini içlərinə çəkirdilər, Vətən sağ olsun deyirdilər. Bəli, bu savaş bizə bir daha özümüzü, kimliyimizi tanıtdı. Bildik ki, biz bu gün gücünü dərk edən yenilməz xalqıq. Bunu hamı, hətta düşmən də anlayır və qəbul edir.

Məhz bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin yeni icra başçılarının təyinatı ilə bağlı keçirdiyi qəbuldakı çıxışının əvvəlkilərinə nisbətən daha sərt və tələbkar olması təbiidir. Çünki bugünkü məmurlar vəzifələrindən və qulluq yerlərindən asılı olmayaraq qalib, özünə güvənən xalqa işləyirlər. Ona görə də onlar, dövlət başçısının dediyi kimi, "...nümunə olmalıdır, ...elə işləməlidirlər ki, daim insanlarla bir yerdə olsunlar". Sonra da əlavə edir: "Mənim tövsiyələrimin içində bu tövsiyə də həmişə xüsusi yer tutur. Sizə də deyirəm, siz insanların arasında olmalısınız, onlarla daim təmasda olmalısınız, onların qayğıları ilə yaşamalısınız və çalışmalısınız ki, imkan daxilində onlara kömək edəsiniz".

Prezidentin tələbi sadədir: əgər Vətənimizin azadlığı uğrunda son döyüşdə iqtidar-xalq birliyi ən yüksək zirvəyə ucaldısa, indi heç bir məmurun vəzifəsindən asılı olmayaraq bu möhtəşəm gücə xələl gətirən, ziyan vuran addım atmağa nə mənəvi, nə də hüquqi haqqı var. Bu gün korrupsiyaya əyilən, rüşvətə baş əyən hər bir dövlət məmuru Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə əldə edilən misli görünməmiş iqtidar-xalq birliyinə xəyanət etmiş olur. Prezident korrupsiyaya meyilli məmurları bir cümlə ilə damğaladı: "Bu insanlar özlərini biabır edirlər, bizim iqtidarımıza ləkə vururlar".

Azərbaycan Prezidenti çıxışında Cəlilabad və Şəmkir rayonlarının sosial-iqtisadi inkişafı üçün əsas infrastruktur layihələrinin icra edildiyini, hər iki rayonda böyük abadlıq işlərinin görüldüyünü və elektrik təsərrüfatının tamamilə yeniləndiyini, qazlaşdırma işlərinin yekunlaşmaq üzrə olduğunu qeyd etdi. Bununla belə həmin rayonlarda idarəetmə sistemindəki qusur və çatışmazlıqları ciddi tənqid etdi: "Ancaq əfsuslar olsun ki, real həyatda biz bunun tam əksini görürük. Bunun nəticəsində və eyni zamanda buraxılmış ciddi nöqsanlar, pozuntular, rüşvətxorluq və korrupsiya hallarına görə həm Cəlilabad, həm də Şəmkir rayonlarının keçmiş icra başçıları cinayət məsuliyyətinə cəlb olunmuşlar. İndi hər kəs görür ki, heç kim qanundan yuxarı dayana bilməz və burada hər kəs qanun qarşısında bərabərdir. Heç kimdə immunitet yoxdur və ola bilməz. Bütün dövlət məmurlarını vəzifəyə təyin edərkən mən bu tövsiyələri verirəm. Ancaq sizdən əvvəl bu vəzifələrdə çalışmış insanlar yalnız şəxsi mənafelərini güdürdülər, talançılığa, rüşvətxorluğa və korrupsiyaya qurşanmışdılar, insanlara laqeyd yanaşırdılar, rayonların qarşısında duran gündəlik problemlərlə yox, öz şəxsi problemləri ilə, şəxsi biznesləri ilə məşğul idilər və əlbəttə, insanların haqlı narazılığına səbəb olmuşdular. Bütün bu faktlar üzə çıxandan sonra, əlbəttə ki, hər iki icra başçısı öz vəzifələrindən azad edildi və indi onlar qanun qarşısında cavab verəcəklər. İstintaq gedir, istintaq hər şeyi göstərəcək. Ancaq ilkin məlumatlar, o cümlədən sübutlar və istintaq materialları deməyə əsas verir ki, bu insanların cinayət məsuliyyətinə cəlb edilməsi tam əsaslı idi".

Bununla dövlət başçısı sadə insanların diqqətinə çatdırdı ki, dövlətin ən məsul vəzifəsi xalq-iqtidar birliyini qorumaq və inkişaf etdirməkdir. Bu birliyin qorunması dövlətin daxili siyasətinin ana xəttidir. Kim bu birliyə biganə yanaşarsa, vəzifəsindən şəxsi məqsədləri, varlanmaq üçün istifadə edərsə, cəzasız qalmayacaq: "Hər kəs bilməlidir ki, heç kim məsuliyyətdən canını, yaxasını qurtara bilməz. Bunu mən dəfələrlə demişəm, bir daha demək istəyirəm, sizə də deyirəm və bu gün bütün digər məmurlara deyirəm - əgər məmurlar öz işində yenə də bu çirkin əməllərdən əl çəkməsələr, onların da aqibəti eyni olacaq. Hətta çıxışlarımın birində demişdim ki, əgər təmiz işləmək istəmirsinizsə, getməyin bu işlərə, razılıq verməyin, yoxsa bədbəxt olacaqsınız. Əgər siz bu məsuliyyətin altına girirsinizsə, onda bax, dediyim kimi, qanun çərçivəsində işləməlisiniz və bu yüksək etimadı doğrultmalısınız. Elə işləməlisiniz ki, vətəndaşlar sizdən razı olsunlar". Başlıca meyar budur. Dövlət məmuru nümunəvi olmalı, insanların dolanışığı, insanların rahatlığı dövlət məmurunun fəaliyyətinin qayəsini təşkil etməlidir: "Sizə də deyirəm, siz insanların arasında olmalısınız, onlarla daim təmasda olmalısınız, onların qayğıları ilə yaşamalısınız və çalışmalısınız ki, imkan daxilində onlara kömək edəsiniz".

Prezidentin çıxışından belə qənaətə gəlmək olur ki, kadr islahatları davam edəcək, korrupsiya ilə mübarizədə heç bir cinayət əməli cəzasız qalmayacaq və heç kimə qanundan yuxarıda dayanmağa imkan verilməyəcək.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Bakıda “Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr” mövzusunda beynəlxalq konfrans keçirilib



Sentyabrın 16-da Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə “Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.

Konfransda 12 ölkənin (Azərbaycan, Avstriya, Belçika, Türkiyə, Özbəkistan, Rusiya Federasiyası, Latviya, Polşa, Gürcüstan, Ukrayna, Makedoniya, Çernoqoriya) müvafiq audit və mühasibatlıq qurumlarını, beynəlxalq peşəkar təşkilatları, ölkəmizin dövlət və qeyri-hökumət təşkilatlarını, özəl sektoru, ali təhsil və elmi-tədqiqat institutlarını təmsil edən 30-dan çox qurumdan 60-a yaxın nümayəndə iştirak edib.

AZƏRTAC xəbər verir ki, Auditorlar Palatası və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə keçirilən tədbiri qurumun sədri, professor Vahid Novruzov palatanın 25 il ərzində gördüyü işlərdən, həyata keçirdiyi tədbirlərdən, ölkəmizdə auditin inkişafından, perspektivlərindən və qarşıda duran vəzifələrdən söz açıb.

Diqqətə çatdırılıb ki, kölgə iqtisadiyyatına və korrupsiya hallarına qarşı mübarizə tədbirlərinin genişləndirilməsi, şəffaflığın artırılması istiqamətində son illər həyata keçirilən tədbirlər də məhz bu məqsədə xidmət edir və konkret əməli-praktiki addımlarla və nəzərəçarpacaq nəticələrlə müşayiət olunur. Cari ilin yanvar-iyun aylarında Azərbaycanın dövlət büdcəsinə vergi daxilolmaları üzrə proqnozun 124,4 faiz yerinə yetirilməsi, o cümlədən qeyri-neft-qaz sektoru üzrə də proqnozdan əlavə büdcəyə 500 milyon manatın ödənilməsi, gömrük rüsumlarının həcminin artması iqtisadiyyatda əhəmiyyətli şəffaflaşma proseslərinin baş verdiyini, iqtisadiyyatın “kölgə”dən çıxarılmasını təsdiq edir. Şəffaflıq sahəsində əldə edilmiş uğurlardan danışarkən Azərbaycan Dövlət Neft Fondunun dünyanın 64 ən şəffaf müstəqil fondları arasında 5-ci yeri tutması da xüsusi qeyd olunmalıdır.

“Ticarət obyektlərində yeni nəsil kassa aparatlarının quraşdırılması ticarətdə dövriyyələrin leqallaşdırılmasına müsbət təsir göstərib, 2020-ci ilin 6 ayı ilə müqayisədə bu ilin 6 ayında onlayn kassa üzrə dövriyyə 2,1 dəfə artıb. Ölkəmizdə təsərrüfat subyektlərinin məcburi auditdən keçmə səviyyəsi son 5 ildə 3,2 faizdən 48,7 faizə kimi yüksəlib. Göründüyü kimi, kölgə iqtisadiyyatının miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması sahəsində atılan addımlar öz müsbət nəticələrini verməkdədir. İndi mühüm olan bu yolu davam etdirmək və şəffaflığın daha da yüksəldilməsinəyönəlik təxirəsalınmaz tədbirlər həyata keçirməkdir. Bu sahədə Azərbaycan Prezidentinin fikirləri öz müdrikliyi ilə diqqəti cəlb edir. Konkret olaraq, Prezidentin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” də nəzərdə tutulduğu kimi dövlət investisiyalarının və dövlət şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəsi yüksəldilməli, bu sahədə şəffaflıq səviyyəsi artırılmalıdır. Dövlət şirkətlərinin kommersiya prinsipləri əsasında fəaliyyət göstərmələri üçün zəmin yaradılmalı, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korporativ idarəetmə standartları tətbiq edilməli və gəlirlilik səviyyələrinin artırılması təmin olunmalıdır. Bu məqsədlə daha konkret sistemli təkliflərin işlənib hazırlanması “şəffaflıq” anlayışının strukturuna nəzər salmağı vacib edir”, - deyə V.Novruzov vurğulayıb.

Azərbaycan İqtisadçılar İttifaqının sədri, Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla reallaşdırılan iqtisadi islahatlar, o cümlədən sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, kölgə iqtisadiyyatının azaldılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, idarəetmə sistemində və bütövlükdə iqtisadi-sosial həyatda şəffaflıq amilinə xüsusi önəm verilməsi Azərbaycanda dayanıqlı və inklüziv iqtisadiyyatın inkişafı üçün zəmin yaradır. Belə şəraitdə sosial-iqtisadi islahatların mühüm amillərindən biri olan şəffaflığın artırılması istiqamətində müstəqil audit də özünəməxsus rol oynamaqdadır.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun sözlərinə görə, hesabatlarında uyğunsuzluq aşkar edilən vergiödəyicilərinin mütləq əksəriyyəti mikro və kiçik sahibkarlardır. KOBİA və Dövlət Vergi Xidmətinin birgə əməkdaşlığı çərçivəsində aparılan təhlillər göstərir ki, vergi ödəyiciləri, xüsusilə də xidmət və ticarət sahəsində fəaliyyət göstərən mikro və kiçik sahibkarların gəlir və xərclərin uçotunun qanunvericiliyə uyğun aparılmaması, bəyannamələrin düzgün tərtib edilməməsi və sair nəticəsində kameral qaydada vergilər hesablanır və bu vergi ödəyicilərinin narazılığına səbəb olur. Bu, həmin kateqoriyadan olan sahibkarların müvafiq sahədə bilik və bacarıqlarının istənilən səviyyədə olmadığını göstərir. Bu hal KOB subyektlərinin hesabat prosesinə professional mühasiblərin və auditorların cəlb etmək imkanlarının olmaması və hesabatları özləri tərəfindən təqdim etmək istəyindən qaynaqlanır. Belə halda sahibkarlara dəstək göstərilməli, eyni zamanda, uçot və hesabat formaları daha da sadələşdirilməlidir.

O.Məmmədov qeyd edib ki, ölkənin müxtəlif şəhər və rayonlarında fəaliyyət göstərən və KOBİA-nın strukturuna daxil olan KOB inkişaf mərkəzləri tərəfindən vergi inzibatçılığı, həmçinin maliyyə və qeyri-maliyyə, vergi hesabatlarının hazırlanması, uçot qaydaları istiqamətində mütəmadi olaraq təlim və məsləhət xidmətləri göstərilir. 2021-ci ilin ötən dövründə KOB inkişaf mərkəzləri tərəfindən qeyd olunan mövzularda 800-ə yaxın biznesə başlamaq istəyən şəxsin və sahibkarın faydalandığı 40-a yaxın təlim təşkil olunub. O da bildirilib ki, mikro və kiçik sahibkarlıq subyektləri tərəfindən vergi inzibatçılığı, vergi hesabatların hazırlanması və digər aidiyyəti sahələrdə yol verilən nöqsanların aradan qaldırılması üçün KOBİA və Dövlət Vergi Xidməti birgə layihəyə start verib. Layihə çərçivəsində nöqsanların müşahidə olunduğu fəaliyyət istiqamətləri üzrə sahibkarlar təsnifatlaşdırılaraq KOB inkişaf mərkəzlərinin təlimlərinə cəlb olunacaq. Həmçinin Agentlik KOB subyektləri üçün uçot və hesabatlığın daha da sadələşdirilməsinə dair təkliflərin hazırlanması istiqamətində aidiyyəti qurumlarla birgə əməkdaşlığa və koordinasiyalı işlərin həyata keçirilməsinə hazırdır.

Azərbaycan Respublikasının baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov diqqətə çatdırıb ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra müasir və günün tələblərinə cavab verən iqtisadi inkişaf modelinin formalaşdırılması və gücləndirilməsi istiqamətində davamlı işlər görülüb, müvafiq dövlət proqramları qəbul edilib, ölkəmizdə korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində konseptual yanaşmalar formalaşdırılıb, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində şəffaflığın təmin olunması üçün audit institutunun inkişaf etdirilməsinə böyük önəm verilib, ölkədə auditor fəaliyyətinin qanunvericilik bazası gücləndirilərək auditorların qərəzsiz və müstəqil fəaliyyəti üçün tələb olunan infrastruktur və maddi texniki baza yaradılıb. Belə ki, korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramının icra müddəti ərzində ölkədə əhəmiyyətli qanunlar qəbul edilərək, Azərbaycan korrupsiyaya qarşı mübarizə ilə bağlı qəbul edilmiş bütün beynəlxalq sənədlərə qoşulub. Dövlət proqramı üzrə antikorrupsiya tədbirlərində Auditorlar Palatasının da fəal iştirak etməsi, palata tərəfindən “Korrupsiyaya qarşı mübarizə məqsədilə dövlət sektorunda və özəl sektorda daxili audit xidmətinin yaradılması üzrə proqram” işlənib hazırlanması təqdirəlayiq haldır.

Nazim Rəcəbov deyib: “Artıq yaradılmasının 25 ilini geridə qoyan Auditorlar Palatası bu illər ərzində Azərbaycanda auditin formalaşdırılması, tənzimlənməsi, inkişafı və təkmilləşdirilməsi, müəssisələrin və auditorların maraqlarının qorunması istiqamətində çox faydalı işlər görüb. Lakin günün tələbləri baxımından Azərbaycanın iqtisadiyyatı gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha da geniş istifadə etmək zərurəti yaranıb. Həmçinin korrupsiyaya qarşı mübarizə vasitəsi olan preventiv-profilaktik tədbirlərin həyata keçirilməsində, xüsusilə də korrupsiyaya şərait yaradan halların müəyyən edilməsində, aradan qaldırılmasında və qarşısının alınmasında audit yoxlamasının nəticəsi müstəsna əhəmiyyətə malikdir. Belə ki, audit yoxlaması ilə hər hansı dövlət qurumunda pozuntu baş verdiyi aşkarlandıqdan sonra, dərhal aidiyyəti qurumlara pozuntunun başvermə mexanizmi barədə məlumat verilməklə, gələcəkdə bu cür pozuntuların qarşısının alınması üçün tədbirlərin görülməsi bildirilir”.

Baş İdarənin rəisi bildirib ki, eyni zamanda, istər korrupsiyaya, istərsə də cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılmasına qarşı mübarizədə maliyyə hesabatlarının doğru tərtib edilməsi və onun obyektiv qiymətləndirilməsi, qanunsuz və şübhəli əməliyyatların aşkarlanması üçün çevik nəzarətin təmin edilməsi, düzgün audit nəzarətinin aparılması ilə şəffaflıq təmin edilir. Təsadüfi deyildir ki, ölkəmizdə son dövrlər korrupsiyaya qarşı mübarizəyə dair proqram xarakterli sənədlərdə audit institutuna geniş yer verilib və bu sahədə mövcud qanunvericilik bazası daha da təkmilləşdirilib. Sevindirici haldır ki, bu gün prokurorluq və digər hüquq mühafizə orqanları ilə yanaşı, Auditorlar Palatasının da dövlət siyasətinin başlıca strateji hədəflərindən olan korrupsiyaya qarşı mübarizə siyasətinin icrasında xüsusi rolu var.

Onun sözlərinə görə, korrupsiya və iqtisadi fəaliyyət sahəsində baş verən cinayətlərin qarşısının alınmasında qabaqlayıcı tədbirlərin görülməsi üçün risklərin müəyyənləşdirilməsi istiqamətində Auditorlar Palatası ilə Baş İdarə arasında münasibətlər daha da inkişaf etdirilməlidir. Belə əməkdaşlıq cinayətlərin baş verməsinə şərait yaradan halların ortaya çıxarılaraq qarşısının alınmasında, konkret sahələr üzrə təhdidlər və zəifliklər müəyyən edilərək islahatların aparılmasında, qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanmasında effektiv vasitə ola bilər. Auditorlar Palatası ilə qarşılıqlı ikitərəfli əlaqələr bundan sonra da davamlı şəkildə inkişaf edəcək və korrupsiyaya qarşı mübarizə işinə layiqli töhfə verəcək.

Sonra Auditorlar Palatasının yubileyi münasibətilə auditor fəaliyyətinin inkişafında xidmətlərinə görə Prezident İlham Əliyevin 2021-ci il 15 aprel tarixli “Azərbaycan Respublikası Auditorlar Palatasının üzvlərinin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında” Sərəncamı ilə təltif edilmiş palatanın 11 nəfər əməkdaşına və üzvünə medallar təqdim edilib.

Çıxış edən xarici qonaqlar son dövrlərdə ölkəmizdə həyata keçirilən iqtisadi islahatlardan, yenidənqurma və quruculuq işlərindən, eyni zamanda, audit və şəffaflıq sahəsində aparılan işlərin əhəmiyyətindən danışıblar.

Konfransda “Şəffaflıq strategiyası və kölgə iqtisadiyyatı ilə mübarizə: Dövlət Vergi Xidmətinin əldə etdiyi nəticələr”, “Koronavirus pandemiyasının kölgə iqtisadiyyatının həcminə təsirlərinin təhlili barədə”, “Böyük qayıdış dönəmində şəffaflıq”, “EFFAA Böhran şəraitində kiçik və orta auditor təşkilatlarını dəstəkləyir və onları gələcəyə hazırlayır”, “Rusiyada auditin inkişafında peşəkar cəmiyyətin rolu barədə”, “Rəqəmsallaşmaya sürətli keçid” və sair mövzularda məruzələr dinlənilib.

Sonda beynəlxalq konfrans iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

# Azərbaycan ilə Qazaxıstan arasında media sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb

Nur-Sultanda keçirilən “2021: Dünya yeni mənalar axtarışında” mövzusunda XVII Avrasiya Media Forumu çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Qazaxıstanın informasiya və ictimai inkişaf naziri Aida Balayeva arasında görüş keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli əməkdaşlıq istiqamətləri müzakirə olunub, ölkələrimiz arasında media sahəsində məlumat mübadiləsinin genişləndirilməsinin vacibliyi vurğulanıb.

Həyata keçirilmiş və perspektivdə nəzərdə tutulan layihələr barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə, eyni zamanda, qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

# Azərbaycan ilə Qazaxıstan arasında teleradio sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

XVII Avrasiya Media Forumunda iştirak etmək üçün Qazaxıstanın paytaxtı Nur-Sultanda səfərdə olan Medianın İnkişafı Agentliyinin, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin, Prezident Administrasiyasının təmsilçilərindən ibarət nümayəndə heyəti “Qazaxıstan” Respublika Teleradio Korporasiyasında olub.

AZƏRTAC xəbər verir ki, korporasiyanın rəhbəri Lyazzat Tanisbayla görüş zamanı iki ölkənin teleradio sahəsində əməkdaşlığının genişlənməsinin əhəmiyyəti, sosial-iqtisadi həyatın, mədəniyyətin dərindən öyrənilməsi məqsədilə jurnalistlərin qarşılıqlı səfərlərinin təşkilinin, müştərək videolayihələrin, film nümayişinin dost və qardaş xalqlarımızın daha da yaxınlaşmasında faydalı olacağı qeyd edilib.

İki ölkənin telekanalları arasında əməkdaşlıq çərçivəsində Azərbaycanın “AzTV” və “Mədəniyyət” telekanalları Teleradio Korporasiyasının istehsal etdiyi proqramları yayımlayır.

Görüş zamanı nümayəndə heyəti Qazaxıstanın uşaqlar üçün “Balapan” telekanalının animasiya sahəsindəki imkanlarını yüksək qiymətləndirib, türk ölkələri üçün ortaq cizgi filmi çəkmək üçün gələcəkdə bu sahədə yaradıcı əlaqələr qurmağı təklif ediblər.

Nümayəndə heyəti Qazaxıstan Teleradio Korporasiyasının fəaliyyəti, “Açıq meydan”, “TV həkimi”, “İnformasiya” informasiya xidmətlərinin işi ilə də yaxından tanış olub.

Korporasiyanın rəhbəri Lyazzat Tanisbay, həmçinin İnformasiya və Sosial İnkişaf Nazirliyi tərəfindən təqdim edilən türkdilli ölkələrin iştirakı ilə “Korkyt Ata” (Dədə Qorqud) serialının çəkilişlərində iştirak etməyə hazır olduqlarını bildirib. Türkdilli ölkələrin müstəqilliyinin 30-cu ildönümü ərəfəsində mədəni və tarixi televiziya layihələri üçün onlayn platforma yaratmaq və dövlət telekanalları arasında telekonfrans təşkil etmək təklifi dəstəklənib.

Bundan başqa, nümayəndə heyətinin üzvləri “Türkdilli ölkələrin mediası. İndiki vəziyyətdə əməkdaşlığın inkişafı” adlı “dəyirmi masa”da iştirak ediblər.

Tədbirdə türkdilli ölkələrin media nümayəndələrinin əməkdaşlığının vacibliyi vurğulanıb. Bu, təkcə siyasi deyil, həm də mədəni dəyərlərin qorunması üçün lazımdır. Tədbirdə türkdilli ölkələrin vahid informasiya platformasının yaradılmasının vacibliyi qeyd olunub.

# *Əhməd İSMAYILOV:* “Avrasiya Media Forumu onlarla ölkədən yüzlərlə nümayəndənin birləşdiyi beynəlxalq ünsiyyət platformasıdır”

Bu il XVII Avrasiya Media Forumun əsas missiyası dəyişməz olaraq qalır - ölkələr və qitələr arasında etimad mühitinin formalaşdırılması, eyni zamanda regionda media subyektlərinin və mütəxəssislərinin birgə fikir mübadiləsinin təmin olunması və perspektivlər barədə müzakirələrin aparılmasıdır.

Bunu Nur-Sultanda keçirilən “2021: Dünya yeni mənalar axtarışında” adlı XVII Avrasiya Media Forumunda iştirak edən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov AZƏRTAC-a müsahibəsində bildirib.

Avrasiya Media Forumunun onlarla ölkədən yüzlərlə nümayəndənin birləşdiyi beynəlxalq ünsiyyət platforması olduğunu vurğulayan Ə.İsmayılov deyib ki, forumda Azərbaycandan olan nümayəndə heyətinin iştirakı əməkdaşlığın davam etdirilməsi istəyinin göstəricisidir. Forum regionda media subyektləri ilə işin qurulması təcrübəsinin öyrənilməsi, həmçinin ölkəmizdə də belə bir təcrübənin həyata keçirilməsinə kömək edəcək.

“Düşünürük ki, həm medianı narahat edən amillərin, həm də dünyada gedən proseslərdə medianın iştirakı məsələsinin dərindən öyrənilməsi belə media forumlar sayəsində mümkün olacaq. Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Qazaxıstanın aidiyyəti qurumları ilə görüşlər keçirir. Hər iki ölkənin media nümayəndələri arasında informasiya mübadiləsinin təmin olunmasına dəstək göstərmək və bu sahədə əməkdaşlığı daha da inkişaf etdirmək niyyətindəyik”, - deyə MEDİA-nın icraçı direktoru bildirib.

# Mədəniyyət naziri İCCROM-un icraçı direktoru ilə işğaldan azad olunmuş ərazilərdə abidələrin bərpasını müzakirə edib

Mədəniyyət naziri Anar Kərimov Özbəkistana səfəri çərçivəsində Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (İCCROM) icraçı direktoru Ebber Ndoro ilə görüşüb.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində xalqımıza məxsus maddi mədəni irs nümunələrini vandalizmə məruz qoyduğunu, mənimsədiyini İCCROM rəhbərinin diqqətinə çatdırıb. Bildirib ki, Azərbaycan Ordusu 44 günlük müharibə nəticəsində ölkəmizin ərazi bütövlüyünü bərpa edib. Hazırda Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərdə geniş, bərpa və yenidənqurma işləri həyata keçirir.

Anar Kərimov bu prosesdə Mədəniyyət Nazirliyinin üzərinə düşən işlər haqqında məlumat verib. Qeyd edib ki, azad olunmuş ərazilərdə nazirlik tərəfindən inventarlaşma, tarixi-mədəniyyət abidələrinin əvvəlki və indiki vəziyyətinin müqayisəsi aparılıb. Artıq Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şuşa şəhərində mədəni quruculuq işlərinə başlanılıb. Nazir tarixi abidələrin bərpa prosesində İCCROM-un dəstəyinə ehtiyac duyulduğunu da E.Ndoronun diqqətinə çatdırıb.

İCCROM-un rəhbəri 2019-cu ildə UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında iştirakı ilə bağlı öz təəssüratlarını bölüşüb. Bildirib ki, İCCROM ilə Azərbaycan tərəfinin razılığına əsasən, daha öncə bərpa və restavrasiya ilə bağlı təlimlərin keçirilməsi planlaşdırılsa da, pandemiya səbəbindən təxirə salınıb.

Görüşdə həmin təlimlərin bərpası, bununla bağlı kurslar üzrə qrupların formalaşdırılması, onlayn treninqin keçirilməsi, işğaldan azad olunmuş ərazilərdə mədəniyyət abidələrinin bərpası ilə bağlı canlı kursların və təlimlərin təşkili, interaktiv diskussiyaların reallaşdırılması və bütün bunlar üçün texniki komissiyanın yaradılması və s. məsələlərlə əlaqədar fikir mübadiləsi aparılıb. Eyni zamanda, İCCROM-un iştirakı ilə Azərbaycanda regional təlim mərkəzlərinin yaradılması da müzakirə edilib.

# Mədəniyyət Nazirliyi məlumat yayıb

İctimaiyyətə məlum olduğu kimi, iki ilə yaxındır, dünya ölkələrinin qlobal probleminə çevrilən pandemiya bütün sahələrə, xüsusən mədəniyyət sahəsinə öz mənfi təsirini göstərib. Etiraf etməliyik ki, bu baxımdan ən çox zərər çəkən sahə teatr, kino sahəsidir. Bu gün kinoteatrların, teatr-konsert müəssisələrinin fəaliyyətinin bərpa olunması Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, xüsusən mədəniyyət nazirinin şəxsi diqqətindədir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Mədəniyyət Nazirliyinin yaydığı açıqlamada yer alıb.

Açıqlamada deyilir: “Pandemiya şərtlərinə əməl edilməklə kinoteatrların, teatr-konsert müəssisələrinin fəaliyyətinin qismən bərpasına icazə verilməsi ilə bağlı tərəfimizdən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargaha müraciət ünvanlanıb. Qeyd edək ki, hazırda davam edən Bakı Caz Festivalının, ötən il onlayn formatda keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının böyük məhdudiyyətlərlə olsa da, bu il canlı keçirilməsinə nail olmuşuq. Hazırkı şəraiti nəzərə alaraq, bu fakt özü özündə ölkə rəhbərliyinin məsələyə verdiyi önəmin bir göstəricisidir. Bu festivallar bizim üçün bir sınaq rolunu oynayır. Belə ki, gedişat uğurlu olarsa, bunu teatr-konsert müəssisələrinin açılmasınayönəlik müsbət addım hesab etmək olar. Doğrudur, teatr-konsert müəssisələrində fəaliyyət göstərən əməkdaşların böyük əksəriyyəti vaksinasiyadan keçmişdir. Ancaq bu işdə təkcə müəssisələrə deyil, vətəndaşlarımızın da üzərinə sosial məsuliyyət düşür. Vaksinasiya prosesində uğurlu nəticələr əldə edildikdən sonra kinoteatrların, teatr-konsert müəssisələrinin fəaliyyətinin ənənəvi qaydada bərpa ediləcəyinə ümid edirik. İnanırıq ki, bu bəla xalqımızın başı üzərindən sovuşacaq və ölkəmizdə həyat tezliklə öz axarına qayıdacaq. Amma hələ ki bu real təhlükə mövcuddur və dövlətimiz, ilk növbədə, əhalinin sağlamlığını düşünməyə məcburdur”.

# “G20 VII Dinlərarası Forum”unda ölkəmizin dinlərarası dialoq sahəsində təcrübəsi müzakirə edilib

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) icraçı direktoru Rəvan Həsənov sentyabrın 11-15-də İtaliyanın G20-yə sədrliyi çərçivəsində Bolonya şəhərində keçirilən “G20 VIII Dinlərarası Forum”da iştirak edib.

BBMM-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, forumda COVID-19 və iqlim dəyişikliyi, qaçqın, məcburi köçkün və miqrantlara lazımi dəstəyin göstərilməsi, din və etiqad azadlığının, qadın və uşaq hüquqlarının qorunması, irqçilik, terrorizm, insan alveri, nifrət çağırışları ilə mübarizə, müasir dünyaya qlobal təhlükə və təhdid yaradan problemlər müzakirə edilib.

Forum çərçivəsində Rəvan Həsənov G20 Sammitinin Dinlərarası Dialoq Forumun vitse-prezidenti professor Kol Durham, ABŞ-da yerləşən Stirlinq Fondunun icraçı direktoru Edvard Rou, Sudanın dini işlər üzrə naziri Nəsrəddin Mofarj, Efiyopiyanın dini işlər üzrə müşaviri Tiquan Taqay, eləcə də Avropa Kilsələr Konfransının İnsan hüquqları müdafiəçisi Elizabeta Kitanoviç ilə görüşüb. Müzakirələr zamanı BBMM-in həyata keçirdiyi beynəlxalq layihələr, Azərbaycanın dinlərarası dialoq platformalarında təcrübəsi, ölkəmizin multikulturalizm ənənələrinin təbliği, qarşılıqlı əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda, ölkəmizin xristianlıq irsinin tədqiqi və Azərbaycan həqiqətlərinin Avropaya çatdırılması istiqamətində bir çox birgə layihənin icrası ilə bağlı qarşılıqlı razılıq əldə olunub.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ilə birgə ABŞ-ın İsa Məsih və Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəhbər heyəti ilə keçirilən görüşdə Qarabağda dağıdılmış və ya saxtalaşdırılmış mədəni irs haqqında da geniş müzakirə aparılıb, bunun şahidi olmaq üçün onlar ölkəmizə dəvət edilib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin G20 Sammitinin Dinlərarası Dialoq Forumunda iştirakı yeni əlaqələrin qurulması, gələcək layihələrin hazırlanması və forum çərçivəsində müntəzəm əməkdaşlığın davam etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyıb.

# Prokurorluq beynəlxalq əlaqələrini müasir tələblər çərçivəsində qurur

Müstəqil dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsi, ölkədaxili sabitliyin təmin olunması, dövlətin iqtisadi, siyasi və hüquqi əsaslarının qurulması, Milli Ordunun yaradılması və formalaşdırılması, beynəlxalq münasibətlərin və mədəni əlaqələrin inkişafı Ümummilli Lider Heydər Əliyevin vətəninə, xalqına olan sarsılmaz bağlılığının, sevginin qüdrətindən irəli gələn əvəzsiz və misilsiz xidmətləri sayəsində mümkün olmuşdur.

> "Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram"
>
> Heydər ƏLİYEV

Azərbaycanın qısa müddətdə müstəqil dövlət olaraq tanınması və xarici ölkələrlə müvafiq sahələrdə müqavilələrin bağlanması həmin dövr üçün zəruri xarakter daşıyırdı. Xarici siyasətin başlıca prinsipləri isə Heydər Əliyevin bilavasitə rəhbərliyi altında 1995-ci il 12 noyabr tarixində qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyasında öz əksini tapmışdır.

Ümummilli Liderin uzaqgörən siyasəti prokurorluğun funksiya və statusuna yenidən baxılması, xalqın və dövlətçiliyin maraqlarının qorunması, qanunun aliliyinin təmin olunması və prokurorluğun fəaliyyətinin demokratik dəyərlərə uyğunlaşdırılması məqsədilə beynəlxalq təcrübəyə əsaslanan islahatların aparılmasına təkan verdi. Azərbaycan Prokurorluğunun bu baxımdan inkişafı Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı olan dövlət başçısı İlham Əliyevin diqqət mərkəzindədir.

"Əsas məqsədimiz - prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır" deyən Prezident 2020-ci il mayın 1-də baş prokuror Kamran Əliyevi qəbul edərkən onun 30 ildən çox prokurorluq orqanlarında işlədiyi, o cümlədən son 6 il ərzində baş prokurorun müavini vəzifəsində çalışdığı müddətdə əldə etdiyi təcrübəyə və peşəkarlığa istinad edərək prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi və geniş miqyasda ehtiyac duyulan islahatların dərinləşməsi istiqamətində daha müsbət nəticələr əldə ediləcəyinə ümid etdiyini bildirmişdir. Dövlət başçısı həmçinin ölkədə aparılan genişmiqyaslı islahatların, o cümlədən siyasi dialoqların müsbət təzahürlərinə əsaslanaraq siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi və münasibətlərin sağlam zəmində qurulmasına yönələn önəmli addımları qeyd edərək Azərbaycanda heç kimin öz siyasi baxışlarına, siyasi mənsubiyyətinə, siyasi fəaliyyətinə görə təqib edilməməli olduğunu qətiyyətlə ifadə etmişdir.

Prezident ölkədə aparılan iqtisadi islahatların inkişafına toxunaraq, bu sahədə də şəffaflığın, dürüstlüyün müsbət nəticələr verdiyini vurğulamış, bunun da sosial sahədə genişmiqyaslı proqramların həyata keçirilməsinə, insanların sosial vəziyyətinin yaxşılaşmasına imkan yaratdığını qeyd etmişdir. Bütün bunlar göstərir ki, ölkədə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır. Prokurorluq orqanları üçün də əsas məqsədlərdən biri məhz bu olmalıdır və bütün işlərdə bu amil əsas kimi dəyərləndirilməlidir.

Dövlət başçısı aparılan kadr islahatlarına da diqqəti cəlb edərək, dünyada siyasi və iqtisadi sahələrlə yanaşı, beynəlxalq müstəvidə də müasir yanaşmaların olmasının zəruriliyini ifadə etmiş, bu istiqamətdə hüquq mühafizə orqanlarında daha geniş islahatların aparılmasının başlıca şərt olduğunu nəzərə çatdıraraq bu sahədə baş prokurorun üzərinə böyük vəzifələr düşdüyünü vurğulamışdır. Prezident bir daha xatırlatmışdır ki, ilk növbədə, ədalətli cəmiyyətin qurulması üçün qanunun aliliyi təmin edilməlidir: "Bu amillər bütün hüquq mühafizə orqanlarının əməkdaşları və rəhbərləri üçün əsas istiqamət olmalıdır ki, hüquq mühafizə sistemində islahatlar dərinləşsin və qanunun aliliyi təmin edilsin".

Vacib sahələrdən biri korrupsiya və rüşvətxorluğa qarşı mübarizədir. Bu kimi cinayətlər cəmiyyətimizin əsaslarını sarsıdan çirkin addımlardır. Ona görə də prokurorluq orqanları bu işdə ön sırada olmalı və qanunun aliliyini təmin etməlidir, - bu da Prezidentin hüquq mühafizə orqanları, o cümlədən prokurorluq qarşısında qoyduğu vacib tələbdir.

Prezidentin baş prokuroru qəbul edərkən etdiyi çıxışında ölkənin bütün hüquq mühafizə orqanlarına ünvanlanan proqram xarakterli göstəriş və tövsiyyələrindən il yarım müddət keçmişdir. Bu müddət ərzində ölkə miqyasında bütün sahələrdə, o cümlədən hüquqi sahədə görülən çoxşaxəli işlər, aparılan çevik və təxirəsalınmaz islahatlar zəminində qazanılan uğurlar, ən başlıcası, təcavüzkar düşmən üzərində tam və parlaq qələbə Azərbaycan tarixinin ən qüdrətli və şərəfli dövrünü əhatə edir. Azərbaycanın prokurorluq orqanları üçün də qürurverici olan bu dövrdə dövlət başçısının göstəriş və tövsiyələrindən irəli gələn istiqamətlərdə çoxsaylı işlər görülmüşdür.

Qarşıda qoyulan məqsədə nail olmaq, prokurorluğun nüfuzunu yüksəltmək, müasir cəmiyyətin tələblərinə cavab verən peşəkar kadr korpusunu formalaşdırmaq məqsədilə dövlət başçısı İlham Əliyevin 10 iyun 2020-ci il tarixli sərəncamı ilə Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılmışdır. Daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılmış, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılmış, mərkəzi aparatın, Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin, Hərbi və Bakı şəhər prokurorluqlarının strukturunda yeniliklər edilmişdir. Həmçinin idarəetmədə nəzarət mexanizminin optimallaşdırılması məqsədilə Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər Üzrə İstintaq İdarəsi ilə Bakı Şəhər Prokurorluğunun İstintaq İdarəsi birləşdirilərək Baş Prokurorluğun İstintaq İdarəsi yaradılmışdır.

İşə qəbul müsabiqələrində yüksəkixtisaslı və müasir bilik və intellektə malik gənc kadrların seçilməsi və yerləşdirilməsinə üstünlük verilməsi, əməkdaşların peşə hazırlığının və etik səviyyəsinin yüksəldilməsi, statusundan asılı olmayaraq hər bir prokurorluq əməkdaşının ünsiyyətdə olduğu vətəndaşların hüquqlarına hörmətlə yanaşma, sui-istifadə, rüşvət və digər korrupsiya elementlərinə qarşı barışmaz mövqe və digər mənəvi dəyərlərin aşılanmasına nail olmaqla müasir meyarlara və tələblərə diqqət artırılmışdır.

Baş Prokurorluğun rəhbərliyi aidiyyəti məsələlərin beynəlxalq səviyyəli müzakirələrdəki çıxışlarında ölkədə korrupsiyaya qarşı kəsərli mübarizə tədbirlərinin həyata keçirilməsi, bu istiqamətdə genişmiqyaslı islahatların aparılması, o cümlədən korrupsiya ilə mübarizədə institusional baza təşkil edən ixtisaslı qurumların fəaliyyəti barədə məlumat vermiş, bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulamışdır. Eləcə də ölkəmizdə demokratik və hüquqi dövlət quruculuğu sahəsində görülən qlobal işlər barədə milli dövlətçilik ənənələrinə və müvafiq dünya standartlarının tələblərinə cavab verən qanunvericilik bazasının formalaşdırılması, korrupsiyaya qarşı mübarizədə prinsipial mövqe ifadə edən normativ-hüquqi akt və strateji fəaliyyət planlarının səmərəli tətbiqi barədə müfəssəl məlumat vermişdir.

Yerinə yetirilən funksional vəzifələr çərçivəsində Baş Prokurorluq rəhbərliyinin bilavasitə iştirakı ilə beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsinə yönələn çoxsaylı tədbirlər həyata keçirilmiş, o cümlədən görüşlər, qəbullar təşkil edilmişdir. Azərbaycan prokurorluğunun təmsil olunduğu beynəlxalq tədbirlərdə müzakirə predmeti olan məsələlərlə yanaşı, Ermənistanın Azərbaycana qarşı uzun illər ərzində davam edən əsassız torpaq iddialarının əsl mahiyyəti, milli-etnik zəmində azərbaycanlılara qarşı törətdiyi qırğınlar, terror aktları, Azərbaycanın dünya tərəfindən tanınmış ərazilərini işğal etməsi, BMT-nin məlum qətnamələrinə məhəl qoymaması və nəhayət, sülh danışıqlarından imtina etməklə Azərbaycan torpaqlarının işğalını davam etməkdə israrlı olduğu üçün dövlətimizin öz hərbi gücü ilə işğal altındakı ərazilərini azad etməsindən danışılmışdır.

Beynəlxalq səviyyəli görüşlərin, həyata keçirilən səfərlərin hər biri Azərbaycanın prokurorluq orqanlarının nüfuz dairəsini genişləndirmişdir. Prokurorluğun rəhbərliyi tərəfindən beynəlxalq təşkilatların, bir sıra xarici ölkələrin Azərbaycandakı səfirlərinin, insan hüquqlarının müdafiəsi sahəsində çalışan və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin qəbulu, qarşılıqlı münasibətlərin qurulması və inkişafı istiqamətində görülən tədbirlərin mahiyyəti prokurorluğun təkcə ittihamedici orqan kimi deyil, ümumbəşəri insan hüquqlarının müdafiəsi və müstəqil dövlətimizin hüquqi əlaqələrinin möhkəmlənməsinə, ümumxalq mənafeyinə xidmət edən fəaliyyətinin təzahürü olduğuna dəlalət edir.

İştirakçısı olduğu bütün beynəlxalq tədbirlərdə və görüşlərdə, eləcə də xarici həmkarlarına və beynəlxalq təşkilatların rəhbərlərinə ünvanlanmış müraciətlərində baş prokuror Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq sentyabrın 27-dən başlayan hərbi əməliyyatlar aparılan ərazidən xeyli uzaqda yerləşən, mülki əhalinin sıx yaşadığı Azərbaycanın qədim və böyük şəhərləri olan Gəncə, Bərdə, Tərtər, strateji əhəmiyyət kəsb edən Mingəçevir Su Elektrik Stansiyası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Novorossiysk neft kəmərlərinin beynəlxalq səviyyədə qadağan olunmuş smerç kaset bombalarından və Skad raket qurğularından istifadə etməklə atəşə tutması nəticəsində uşaqlar və qadınlar daxil olmaqla çoxlu sayda mülki şəxslərin həlak olması, yüzlərlə mülki vətəndaşın ağır dərəcəli xəsarətlər alması, minlərlə evə və mülki obyektə ciddi ziyan vurulması barədə də geniş məlumat vermişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Ermənistanın Cenevrə konvensiyaları və ümumilikdə beynəlxalq hüquqdan irəli gələn öhdəlikləri kobud surətdə pozmaqla dinc əhaliyə qarşı törətdiyi təxribatlar, həmçinin Ermənistan tərəfinin törətdiyi hərbi və müharibə cinayətləri nəticəsində həlak olmuş insanlar, vətəndaşlara və dövlətə vurulmuş ziyan barədə baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti dövlətimizi təmsil edən MDB-nin iştirakçısı olan ölkələrin baş prokurorlarının Əlaqələndirmə Şurasının 8 oktyabr 2020-ci il tarixli videokonfrans formatında keçirilən 30-cu iclasında, Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin baş prokurorlarının 20 oktyabr 2020-ci il tarixində videokonfrans formatında keçirilən 18-ci iclasında, Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçla, Böyük Millət Məclisinin İnsan Hüquqları komitəsinin sədri Hakan Çavuşoğlu və bir sıra digər xarici ölkələrin və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri ilə keçirilən görüşlər zamanı ətraflı məlumat verilmişdir. Müharibə dövrü ərzində Prezident Administrasiyası və Baş Prokurorluğun rəhbərliyi tərəfindən ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin diplomatik nümayəndələri rəhbərlərinin, yerli və xarici media qurumlarının iştirakı ilə brifinqlər keçirilmişdir.

Ermənistan silahlı qüvvələri və siyasi hərbi rəhbərliyi tərəfindən törədilən cinayət faktları üzrə 70-dən çox cinayət işi başlanmış və hazırda da həmin cinayət işləri üzrə intensiv istintaq-əməliyyat tədbirləri aparılaraq xarici dövlətlərlə bu istiqamətdə hüquqi yardım sahəsində əməkdaşlıq davam etdirilir.

II Qarabağ müharibəsi zamanı prokurorluğun fəaliyyəti dövlət başçısı tərəfindən yüksək qiymətləndirilərək 31 dekabr 2020-ci il tarixli sərəncamla 38 nəfər prokurorluq əməkdaşı müxtəlif orden və medallarla təltif edilmişlər.

Azərbaycan Respublikasının prokurorluq orqanlarının cinayətkarlıqla mübarizə sahəsində xarici dövlətlərin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatları ilə səmərəli qarşılıqlı işgüzar əməkdaşlıq münasibətləri mövcuddur. O cümlədən Azərbaycan prokurorluğu cinayətkarlıqla mübarizə, qarşılıqlı hüquqi yardım, ekstradisiya məsələləri sahəsində sıx əməkdaşlıq münasibətlərini qardaş Türkiyə Respublikası ilə uğurla davam etdirir. Cari ilin fevral ayının 17-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan nümayəndə heyətini qəbul etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə may ayının 30-da Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Bəkir Şahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Səfər çərçivəsində qarşılıqlı hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə 31 may tarixində anlaşma memorandumu imzalanmışdır.

2021-ci il yanvarın 12-də Rusiya Federasiyasının baş prokuroru İqor Krasnovun dəvəti ilə, Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun nümayəndə heyətinin Rusiya Prokurorluğunun yaranmasının 299 illiyinə həsr olunmuş tədbirlərində iştirakı, Azərbaycan və Rusiya prokurorluqları arasında 2021-2023-cü illəri əhatə edən Əməkdaşlıq Proqramının imzalanması, aprel ayında isə İqor Krasnovun Azərbaycan Respublikasına rəsmi səfəri zamanı Azərbaycanın dövlət başçısı İlham Əliyev tərəfindən qəbul edilməsi iki ölkənin prokurorluq orqanları arasında sıx əməkdaşlıq münasibətlərinin təzahürüdür.

Müstəqil Azərbaycan Respublikasının Prokurorluğu bu günə kimi çoxsaylı dövlətlərin prokurorluq və digər hüquq mühafizə orqanları ilə əməkdaşlıq münasibətləri quraraq saziş, əməkdaşlıq proqramları və anlaşma memorandumlarının imzalanmasına nail olmuşdur.

Cinayətkarlıqla mübarizədə dünya prokurorlarının səylərinin birləşdirilməsində Beynəlxalq Prokurorlar Assosiasiyası mühüm rola malikdir. 1997-ci ildə Azərbaycan Respublikası Baş Prokurorluğunun həmin təşkilatın üzvlüyünə qəbul edilməsi, 2018-ci ilin sentyabr ayında hələ baş prokurorun müavini vəzifəsində çalışan Kamran Əliyevin həmin təşkilatın vitse-prezidenti vəzifəsinə seçilməsi dövlətimizin mütəşəkkil transmilli cinayətkarlıqla mübarizə sahəsində uğurlu siyasətinin təcəssümüdür.

Cari ilin 4-5 may tarixlərində Niderlandın Haaqa şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin videokonfrans formatında 51-ci iclası zamanı assosiasiyanın vitse-prezidenti Kamran Əliyev tərəfindən 2024-cü ilin sentyabr ayında Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının Bakı şəhərində keçirilməsinə dair təklif irəli sürülmüş və bu təklif yekdilliklə qəbul edilmişdir. Bu da Azərbaycan Respublikasının prokurorluq orqanlarının nüfuzunun beynəlxalq aləmdə yüksəlməsini özündə əks etdirən qürurverici hadisədir.

Bu gün də ekstradisiya, hüquqi yardım və digər sahələr üzrə beynəlxalq müqavilə və konvensiyalarda təsbit edilmiş öhdəliklərin icrasında öz səlahiyyətləri çərçivəsində fəal iştirak edən prokurorluq orqanları tərəfindən əməkdaşlığın genişləndirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi uğurla davam etdirilir.

Bu gün COVID-19 virusunun yayılmasının qarşısının alınması, vətəndaşların həyat və sağlamlıqlarının qorunması məqsədilə prokurorluq orqanları tərəfindən qüvvədə olan sanitariya-gigiyena və karantin rejimi qaydalarının pozulması faktları ilə bağlı cinayət təqibi həyata keçirilir. COVID-19 pandemiyası digər sahələrdə olduğu kimi, xüsusilə ekstradisiya məsələlərində çətinliklər yaratdığı bir zamanda prokurorluq tərəfindən digər aidiyyəti qurumlarla birgə zəruri tədbirlər görülərək cinayət törətmiş və istintaqdan qaçıb gizlənmiş, barələrində həbsli axtarış elan olunmuş bir sıra şəxslərin Azərbaycana ekstradisiya olunmaları təmin olunmuşdur. Hazırda bu istiqamətdə zəruri tədbirlər davam edir.

***Erkin ƏLİXANOV,***
***Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi, baş ədliyyə müşaviri***

# Əməkdaşlığın gələcək istiqamətləri müzakirə olunub

"Sosial sahədə aparılan genişmiqyaslı islahatlar əlilliyin müəyyən olunması sistemini də əhatə edir. Bu sistemin qabaqcıl dünya təcrübəsinə uyğun təkmilləşdirilməsində Dünya Bankı və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə əməkdaşlığa xüsusi önəm verilib, hər iki təşkilatla faydalı məsləhətləşmələr aparılıb, onların rəy və təklifləri nəzərə alınıb".

Bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev Dünya Bankının (DB) nümayəndələri - sosial müdafiə məsələləri üzrə baş mütəxəssislər Mirey Ovadiya və Mitçel Vayner, baş iqtisadçı Sirma Demir Şeker, təcrübə rəhbəri Ahmet Levent Yener və başqaları ilə videoformatda keçirilən görüşdə bildirib.

Nazir müavini yeni "Əlilliyin müəyyən olunması meyarları"ndan bəhs edərək həmin meyarların ən qabaqcıl beynəlxalq təcrübələr təhlil edilməklə hazırlandığını qeyd edib. Bu zaman ÜST-ün müəyyən etdiyi standartların, həmçinin bir çox ölkələrin müsbət təcrübələrinin araşdırıldığını deyib.

H.Abdullayev tibbi modeldən sosial modelə keçidi nəzərdə tutan Funksionallığın Beynəlxalq Təsnifatından da bəhs edib. Bu təsnifat əsasında əlilliyin qiymətləndirilməsi üzrə Dünya Bankı tərəfindən ötən ilin iyul ayından göstərilən texniki dəstəyin, eləcə də cari ilin mart ayında DB nümayəndələrinin Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatı üzrə keçirdiyi təlimin önəmini qeyd edib.

Görüşdə əlilliyi olan şəxsin tibbi, peşə-əmək, psixoloji-pedaqoji reabilitasiyası və sosial bacarıqların inkişafı ilə əlaqədar kompleks tədbirləri özündə əks etdirən Fərdi Reabilitasiya Proqramı barədə də məlumat verilib. Eləcə də əlilliyin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi işlərində Dünya Bankı ilə əməkdaşlığın gələcək istiqamətləri müzakirə olunub.

# Məşğulluq sahəsində yeni konsepsiya və metodologiyanın, e-platformaların təqdimatı olub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində məşğulluq xidmətlərinin təkmilləşdirilməsi sahəsində aparılan işlər müzakirə edilib, məşğulluq sahəsində yeni konsepsiya və metodologiyanın, e-platformaların təqdimatı olub.

Sosial islahatların məşğulluq sahəsini də geniş şəkildə əhatə etdiyini bildirən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev mühüm islahat istiqaməti kimi məşğulluq xidmətlərinin rəqəmsal infrastrukturunun qurulması istiqamətində son illərdə mühüm addımların atıldığını qeyd edib. O, "Məşğulluq" altsisteminin yaradılaraq, bütün vakansiyaların bu e-sistemdə toplandığını, iş və işçi qüvvəsi üçün bütün müraciətlərin həmin e-sistemdə qarşılandığını, məşğulluq sahəsi ilə bağlı hesabat təqdimetmə prosedurlarının elektron müstəviyə keçirildiyini deyib.

Nazir həmçinin işsiz və işaxtaran şəxslərin qeydiyyatının, fərdi məşğulluq proqramlarının tərtibinin elektronlaşdırıldığını qeyd edib. Məşğulluq xəritəsinin, "BACAR" virtual informasiya resursunun, "E-əmək birjası və yarmarkası" sisteminin və s. hazırlanmaqda olduğunu bildirib. Qurulmaqda olan "Əmək münasibətləri və məşğulluq" (ƏMAS) e-platformasının ölkə üzrə əmək münasibətlərini, məşğulluq, əmək və məşğulluğa nəzarət, hesabatlılıq, təhlil kimi funksional istiqamətləri əhatə edəcəyini deyib və bildirilib ki, digər islahat istiqaməti məşğulluq xidmətlərinin işsiz və işaxtaran şəxslərin əmək bazarına çıxışında, məşğulluğunun təmin olunmasında daha çevik və effektiv rola malik olmasına yönəlib. Bunun üçün vacib şərtlərdən biri, ilk növbədə, işsiz və işaxtaran şəxslərin real imkan və bacarıqları müqabilində onların məşğulluq imkanlarının qiymətləndirilməsi üçün daha təkmil mexanizmin qurulmasıdır. Bu əsasda onlarla bağlı görüləcək məşğulluq tədbirlərinin ardıcıllığının və sistemliliyinin təmin edilməsi həmin şəxslərlə bağlı fərdi məşğulluq proqramının tərtibatında da bu ardıcıllığın nəticəyə yönəlik prinsip üzrə düzgün müəyyən olunması xüsusi önəm kəsb edir.

İclasda nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin fəaliyyətinə, ƏMAS e-platformasına, "Məşğulluq xəritəsi"nə, məşğulluğa yeni yanaşma üzrə konsepsiya sənədinə, əmək bazarı və məşğulluq bülleteninə, ərazi məşğulluq filiallarının fəaliyyətinin qiymətləndirilməsinə dair təqdimatlar olub. Həmçinin məşğulluğun qiymətləndirilməsi üzrə hazırlanmış yeni metodologiya layihəsi təqdim edilib və bunların əsasında müzakirələr aparılıb.

***"Azərbaycan"***

# Vətən müharibəsində yaralanmış hərbi qulluqçulardan 1750 nəfərin əlillik təyinatı aparılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Anar Bayramov əlilliyin qiymətləndirilməsi və əlilliyi olan şəxslərə tibbi-sosial reabilitasiya xidmətlərinin göstərilməsi sahəsində görülən işlərə dair mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, A.Bayramov əlillik təyinatı prosesinin vətəndaş-ekspert təması olmadan elektron infrastruktur üzərindən tam şəffaf həyata keçirildiyini qeyd edib. O, bu ilin 8 ayında 35 minə yaxın şəxsə əlillik təyin edildiyini, o cümlədən 11 min şəxsin ilkin, qalanlarının təkrar əlillik təyinatı aparıldığını bildirib.

Qeyd edib ki, bu ilin 8 ayında agentlik tərəfindən əlilliyi olan 7 min şəxs 30 minədək reabilitasiya vasitəsi, o cümlədən 766 şəxs mühərrikli təkərli oturacaqla təmin edilib və həmin vasitələr onların bir hissəsinin yaşadıqları ünvanlara aparılaraq çatdırılıb. Yanvar-avqust aylarında qurumun reabilitasiya müəssisələrində əlilliyi olan şəxslərdən, habelə müharibə əlillərindən ibarət 4600 şəxsə reabilitasiya xidmətləri göstərilib.

A.Bayramov möhtəşəm zəfərimizlə başa çatan Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların aidiyyəti qurumlarla birgə əyani müayinədən keçirilməklə əlilliyinin qiymətləndirilməsi sahəsində görülən işləri qeyd edib. Həmin hərbi qulluqçulardan 1750 nəfərə əlillik təyinatı aparıldığını diqqətə çatdırıb.

Mətbuat konfransında jurnalistlərə məlumat verilib ki, dövlət başçısının göstərişi ilə son illər müasir tələblərə uyğun qurulmuş reabilitasiya sistemi qazilərin yüksək səviyyədə reabilitasiya xidmətləri ilə təminatında mühüm rol oynayır. Postmüharibə dövründə reabilitasiya müəssisələrində 1500 qaziyə xidmətlər göstərilib. Ötən ilin dekabrından ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanaraq orqanlarını itirmiş hərbçilərin yüksək texnologiyalı elektron protezlərlə təminatı işləri də aparılır. Artıq 141 hərbçi son nəsil protezlə təmin edilib. Yuxarı ətrafları amputasiya olunmuş 29 qazidən İslandiyanın ÖSSUR şirkətinin Rusiya nümayəndəliyinin mütəxəssisləri ilə birgə müvafiq ölçülər götürülüb və yaxın günlərdə onların yüksək texnologiyalı protezlərlə təminatı prosesinə başlanılacaq.

Postmüharibə dövründə əlavə olaraq 814 müharibə əlilinin 7706 reabilitasiya vasitəsi ilə təmin edildiyini bildirən A.Bayramov diqqətə çatdırıb ki, agentliyin tabeliyində olan bütün reabilitasiya müəssisələri əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Bu il isə Qəbələ və Şəmkir rayonlarında da Uşaq Reabilitasiya Mərkəzləri açılacaq.

Əlilliyin qiymətləndirilməsi proseduru, tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində e-texnologiyaların tətbiqi barədə ətraflı məlumat verən agentlik sədri əsassız əlillik təyinatlarının qarşısının alınması, tərtib edilməsində çatışmazlıq olan göndərişlərin geri qaytarılması sahəsində görülən işləri də diqqətə çatdırıb.

# Neftçala Olimpiya İdman Kompleksinin inşasında tamamlama işləri gedir

Pandemiyanın tuğyan etməsinə, Qarabağda genişmiqyaslı tikinti-quruculuq işlərinin görülməsinə baxmayaraq, regionların sosial-iqtisadi inkişafı 4-cü Dövlət Proqramında nəzərdə tutulmuş layihələrdə reallaşır. Belə layihələrdən biri də Neftçalada inşa olunan olimpiya idman kompleksidir.





İndi demək olar hər rayonda belə kompleks mövcuddur. Məqsəd böyüməkdə olan gənc nəslin sağlam, fiziki cəhətdən hazırlıqlı olmasını, onların asudə vaxtlarının səmərəli keçməsini təmin etməkdir. Bundan başqa, bu gün Azərbaycan həm də idman ölkəsi kimi tanınır. İdmançılarımız beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edirlər. Azərbaycanın özü də beynəlxalq yarışlara az evsahibliyi etmir.

Neftçalada da yaxşı idman ənənələri var. Keçən əsrin 60-cı illərində tikilən stadion indi də fəaliyyət göstərir. Bu illər ərzində stadion saysız-hesabsız idman tədbirlərinə şahidlik etmişdir. Hətta "Neftçi" burada görüşlər keçirmişdir. Ümumiyyətlə, sovetlər zamanında Neftçalada boks, güləş, voleybol və digər növlər üzrə adlı-sanlı idmançılar yetişmişdir. Şübhə yoxdur ki, tikintisi başa çatmaqda olan olimpiya idman kompleksi rayonda idmanın inkişafına yenidən təkan verəcək. Yetişən gənc nəsil Neftçala idmanının keçmiş şöhrətini özünə qaytaracaq, onu daha irəli aparacaqdır. Bunun üçün kompleksdə idmançılar üçün bütün şərait yaradılır.

Tikintidə tamamlama işləri görülür. Sifarişçisi Gənclər və İdman Nazirliyi, podratçısı "Meqaplus" MMC olan kompleksdə müasir avadanlıqlarla təchiz ediləcək üzgüçülük hövuzu, güləş, tennis, boks, bilyard, şahmat, rəqs, trenajor, ağırlıqqaldırma, stolüstü oyunlar, eləcə də voleybol, basketbol, həndbol zalları, o cümlədən açıq havada müvafiq idman meydançaları fəaliyyət göstərəcək. Bundan başqa, müxtəlif tədbirlərin keçirilməsi üçün akt və internet zalları, bar, habelə hotel idmançıların xidmətində olacaq. Avropa standartları səviyyəsində qurulan kompleksin səmərəli fəaliyyət göstərə bilməsi üçün elektrik yarımstansiyası, alternativ 2 işıq mənbəyi - generator, yanğına qarşı hər birinin tutumu 200 kubmetr olan 2 və 32 kubmetrlik 1 içməli su anbarı, şambo - kanalizasiya xətti, mərkəzləşdirilmiş qaydada işləyəcək soyutma və istilik sistemi olacaq.

İnşaatçılar kompleksi noyabr ayında istifadəyə verməyi planlaşdırırlar.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!



# Koronavirusa yoluxanlar ona yenidən yaxalana bilər

## Odur ki, məsuliyyətli olmaq, vaksinasiyadan keçmək vacibdir

Bəşəriyyət üçün təhlükəli xəstəlik olan koronavirus infeksiyasının pandemiyaya çevrilməsi dövlətlərin sosial-mədəni, eləcə də iqtisadi həyatını iflic edir. Buna görə də iki ilə yaxın müddətdir bu bəladan xilas olmağın yolları araşdırılmaqdadır.







Bu gün infeksionist-həkimləri daha ciddi düşündürən məsələ ondan xilas olmağı insanlara başa salmaqdır. Əhalini isə son günlər narahat edən bir adamın ildə neçə dəfə koronavirusa yoluxa bilməsidir. Həkimlərin fikirlərindən məlum olur ki, bu il yoluxanlar arasında keçən il virusdan uzaq durmağı bacarmayanlar da var. Hətta bir il əvvəl yoluxub, 2 doza vaksin olunanlar da xəstələniblər. Rusiyalı infeksionist-həkim Boris Çuradze bundan sonra koronavirusa bir neçə dəfə yoluxmağın mümkünlüyünü açıqlayıb: "Təcrübəmizdə hətta yoluxub sağaldıqdan 3 ay sonra yenidən yoluxanlar olub. Çox nadir halda insan il ərzində 3-4-5 dəfə koronavirusa yoluxub və bu xəstəliyi keçirib. Lakin bu, az halda olur. Ən çox rast gəlinən isə ildə 2 dəfə yoluxma halları idi. Bu, virusun mutasiyaya uğraması və fərqli ştamların yaranması ilə izah olunur. Çox halda təkrar yoluxma yüngül keçir. Lakin əgər gələcəkdə daha güclü mutasiya olarsa, ikinci yoluxma ağır keçə bilər. Eyni ştamma yoluxduqda ikinci, üçüncü dəfə onu daha yüngül keçirirsən. Bəzən xəstə test verməsə, yoluxduğunu bilmir. Təcrübədə xəstəliyi birinci dəfə yüngül keçirərək ikinci dəfə xəstəxanaya düşənlər olub. Populyasion immunitet formalaşandan və vaksinasiya çoxalandan sonra xəstələnmə gedişatı yüngülləşəcək, yoluxma sayı azalacaq. Aybaay, ildən-ilə kütləvi populyasion immunitet artacaq. Artıq növbəti ildə koronavirusun cəmiyyət üçün faciəvi olmayacağını görəcəyik. Bu infeksiyadan ölüm azalacaq, yoluxmalar yüngül keçəcək. Pandemiya davam edərsə, orta statistik olaraq, bir insanın ildə 2 dəfə yoluxması mümkündür".

"Koronavirusa yoluxduqdan bir müddət sonra antitellər məhv olur. Bu səbəbdən virusa yoluxmuş şəxs yenidən xəstəliyi keçirə bilər".

### 6-7 ay immunitet güclü olur

Bu fikirlərin müəllifi həkim Qalib Əsədov onu da vurğulayıb ki, ilk dəfə yoluxan zaman insanlar xəstəliyi nə qədər ağır keçirsə, immunitet bir o qədər güclü olar: "Yüngül keçirən insanlar 2-3 aydan sonra yenidən yoluxarsa, bu halda xəstəliyi ağır keçirənlərdə təxminən 6-7 ay immunitet güclü olur. Həmçinin təkrar yoluxma zamanı xəstəliyin yüngül keçirildiyi bildirilsə də, bəzi şəxslərdə bu, özünü doğrultmur. Bu gün bütün dünyada təkrar yoluxma halına rast gəlinir. Təkrar yoluxmalar qısamüddətli immunitetin yarandığını göstərir".

COVID-19-dan dünyasını dəyişənlərin sayının ötənilkindən çox olmasına baxmayaraq, hələ də bu dəhşətli ölüm kabusuna inanmayanlara da rast gəlinir. Məhz bu inamsızlığın nəticəsidir ki, vaksinasiya ilə bağlı aparılan təbliğat, tətbiq edilən cərimələr və inzibati cəzalar bəzən müsbət nəticəsini göstərmir.

"Təkcə bizdə deyil, bütün dünyada belədir ki, koronavirusa inanmayanların sayı inananlardan çoxdur. Hamı deyirdi ki, heç yaxın qohumda, qonşuda COVID-19-a yoluxan görmədik. Bəzi insanlar var ki, koronavirus xəstəliyindən müalicə alsalar belə bunu heç yaxınlarına da demirlər..." TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev bu fikirləri koronavirusa inanmayanlarla bağlı söz açarkən bildirib. TƏBİB rəsmisi qeyd edib ki, bu, ilk növbədə, mentalitetimizlə bağlıdır: "...Sanki koronavirusa yoluxmaq bir ayıbdır. Koronavirus yuxarı tənəffüs yolu infeksiyasıdır. Hansı ki sonradan pnevmoniyaya da səbəb olur. Hamının yoluxma ehtimalı var və heç kim bundan sığortalanmayıb. Yəqin ki, insanlar ətrafında olan şəxslərdən birinin koronavirusa yoluxmasından sonra buna daha çox inanacaqlar. Amma onda da gec olacaq. Bu, təkcə Azərbaycana xas olan xüsusiyyət deyil, dünyəvi problemdir. Biz koronavirusa yoluxan insanların hansı vəziyyətdə olduğunu görürük. Təbii ki, yüngül formada keçirənlər daha çoxdur. Ancaq orta-ağır və ağır formada keçirənlərin də sayı az deyil. Buna hazırda inanmaq lazımdır. Bu inam bizə xeyir gətirə bilər..."

### "Delta"nın sonuna çıxmaq olar"

Əlbəttə, bu fikirdə olan insanlara artıq cəmiyyətdə az-az rast gəlinir. Lakin məsələ onların sayının azalmasında deyil. Hələ vaksinasiya prosesində iştirakdan dolayısı ilə uzaqlaşanlar barmaqla göstərilmir, baxmayaraq ki, yaxın-uzaq qohumları və doğmaları koronavirusdan xilas ola bilməyərək dünyasını vaxtsız dəyişənlər də var.

Daha bir mühüm məqam da virusoloqların yaxın zamanlarda 4-cü dalğanın olub-olmayacağı barədə söylədiyi fikirlərdir. Əsas risk təhsil müəssisələrinin açılması ilə bağlıdır. Ötən il birinci və ikinci dalğada 90 faiz ölkələrdə təhsil onlayn, yəni distant formada idi. Bu gün isə peyvənd olunmuş müəllimlərlə vaksin olunmayan şagird ordusu qarşılaşacaq.

Professor Sergey Netesov 4-cü dalğanın məhz bu səbəbdən ola biləcəyini bildirib: "Distansion təhsil özünü doğrultmadı, dünya risklərə rəğmən əyani təhsilə keçir. Bu, çox riskli vəziyyətdir, hətta bütün pedaqoqlar 2 doza vaksin olunsalar da. Uşaqları heç kim peyvəndləmir, "delta" ştammı hətta beşyaşlı uşaqlara da keçir. Uşaqlar koronavirusdan qorunmağı bilmirlər, maska taxmayacaqlar, sosial məsafə gözləməyəcəklər. İndidən hesablamaq belə çətindir ki, yoluxma hansı miqyasda olacaq. Əgər peyvəndləmə zəifdirsə, müəllim və şagirdlər maska taxmayacaqsa, dərslər başlayandan 2 həftə sonra növbəti dalğa qaçılmazdır. Yeganə yol 2 doza vaksin olunub, sinifdə maska taxmaqdır. Amma bu dəfə də uşaqlar arasında yoluxma hallarının artacağını görə bilərik. Ona görə də yeni tədris ili müəllimlərdən çox uşaqlar üçün təhlükəli ola bilər. Hazırda "delta" ilə mübarizə aparırıq. Yeni ştamlar meydana gəlməsə, daha bir dalğa ilə "delta"nın sonuna çıxmaq olar".

### Artıq xəstəxanalara azyaşlı uşaqlar da daxil olur

Həkimin sözlərinə görə, Rusiya əyalətlərində xəstəxanalara azyaşlı uşaqlar daxil olur və onların arasında vəziyyəti orta-ağır olanlar da var. Virusoloqlar təcili olaraq uşaqlar üçün korona vaksininə ehtiyac olduğunu bildirirlər. "El bir olsa, dağ oynadar yerindən". Dediklərimizi etsəniz, 4-cü dalğa bu gündən etibarən ən azı sizin üçün bitəcək. Bir müddətlik restoranlara, alış-veriş mərkəzlərinə, gəzməyə, qonaqlığa getməyin. Bütün günü orda-burda şəkil çəkdirib sosial şəbəkədə paylaşırsınız, 3 gün sonra da yazırsınız ki, mən də yoluxdum..."

Tanınmış anestezioloq-reanimatoloq Şahin Məmmədov 4-cü dalğanın uzun müddət davam etməsinin səbəblərini də izah edib: "Mənim proqnozumla dördüncü dalğa bu günlərdə bitməli idi. "Delta"nın dalğası nisbətən uzun çəkir, çünki sürətlidir, yanından keçən adama da yoluxa bilir. Ailədəkilər də tez yoluxur. Amma nə qədər sürətli olsa da, hər dalğanın müəyyən müddəti var. O müddəti keçə bilməz. Tezliklə bitəcək. Qorunma tədbirlərini hamı bilir. Bir az ciddi yanaşsanız, tezliklə yoluxma sayında kəskin enmənin şahidi olacağıq".

Tədris ilinin başlanması ərəfəsində məktəblərin fəaliyyətini bərpa etmələri və müəllimlərin hansı formada dərs deyəcəyi barədə məqamlar müzakirə mövzusudur. Haqlı sualdır: peyvənd olunmayan müəllim üzbəüz dərs deyə bilərmi?

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC* (012) 440-46-94, (012) 441-19-91
*"Azərpoçt" ASC* (012) 598-49-55, (051) 225-02-13
*"Qaya" firması* (012) 566-77-80, (050) 214-40-53
*"Kaspi" MMC* (012) 432-39-55, (012) 510-82-24
*"Region Press" MMC* (055) 316-79-01, (050) 316-79-01
*"Səma-M" MMC* (012) 594-09-59
*"Ziya" LTD* (012) 497-76-96, (050) 306-77-22
*"Pressinform" MMC* (012) 598-49-52, (070) 340-01-00
*"City press" MMC* (055) 819-09-26

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azərbaycan Respublikasının Mərkəzi Bankı kotirovka sorğusu elan edir

Azərbaycan Respublikasının Mərkəzi Bankına məxsus Bakı şəhəri, M.Seyidov küçəsi, 20 A ünvanında yerləşən inzibati binanın mühafizəsinin təşkil edilməsi üzrə xidmətin satın alınması.

Kotirovka sorğusu üzrə Əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri ən geci 01 oktyabr 2021-ci il saat 17:30-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və Satınalmalar komissiyası tərəfindən 04 oktyabr 2021-ci il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

**Kotirovka sorğuları üzrə əlaqələndirici şəxslər:**
**Elvin Şirdanov, telefon - 493 11 22 (daxili 428)**
**Elnur Musayev, telefon - 493 11 22 (daxili 490)**

***Satınalmalar komissiyası***

# BMT Baş Assambleyası sessiyasının əsas mövzuları açıqlanıb

**Sessiyada pandemiyaya qarşı mübarizə, iqlim dəyişikliyi və dünyanın ərzaq təminatı məsələləri müzakirə olunacaq**



Xəbər verildiyi kimi, Nyu Yorkda BMT Baş Assambleyasının 76-cı sessiyasının təntənəli açılışı olmuşdur. Sessiyanın yüksəksəviyyəli həftəsi sentyabrın 21-27-də keçiriləcək. İclaslarda pandemiya ilə mübarizə və iqlim dəyişikliyi problemləri müzakirə ediləcək. Bundan əlavə, ərzaq və energetika məsələləri də diqqətdə olacaq.

BMT-nin Mətbuat xidmətinin məlumatında bildirilir ki, bu sessiya 2020-ci ilin tamamilə virtual təşkil olunan iclaslarından çox fərqlənəcək. Təşkilatın yaydığı presrelizdə deyilir ki, BMT Baş Assambleyasının 76-cı sessiyasının da COVID-19 pandemiyası şəraitində keçirilməsinə baxmayaraq, bu, liderlərə (onların bəziləri assambleyanın zalında olacaq) aktual qlobal problemləri həll etməyə mane olmayacaq.

Qeyd olunur ki, bu il Baş Assambleyanın sessiyasının formatı dünyada mövcud vəziyyəti əks etdirir. Belə ki, tədricən əyani iclaslara qayıtmaq və işi onlayn rejimdə saxlamaq nəzərdə tutulur. Sentyabrın 20-də dövlət başçılarının bir hissəsi müzakirələrdə iştirak etmək üçün BMT-nin mənzil-qərargahına gələcək. Lakin əksəriyyət evdə qalacaq və öz mesajlarını video vasitəsilə ötürəcək.

Dövlət başçıları və digər məmurlar üçün BMT Baş Assambleyasının ən vacib aspektlərindən biri həmkarları ilə üz-üzə olan qeyri-rəsmi görüşlər keçirmək imkanıdır. Amma hələ ki, liderlərdən kimin Nyu Yorka gələcəyi dəqiq məlum deyil. Son məlumata əsasən, BMT Baş Assambleyasında 83 dövlət başçısının iştirakı gözlənilir. Bununla yanaşı, 26 lider onlayn çıxış üçün qeydiyyatdan keçib.

Sessiyada pandemiyaya qarşı mübarizə, xüsusilə zəngin ölkələrin daha yoxsul ölkələrə dəstək məsələsi qaldırılacaq. Həmçinin yeni ərzaq sistemlərinin yaradılması (burada yetişdirilən məhsullardan ətə qədər sağlam və kalorili qidanın çatdırılması ilə bağlı bütün məsələlər nəzərdə tutulur), iqlim böhranı problemləri, mədən yanacağı və bərpa olunan enerji mənbələrindən istifadə mövzuları da gündəmdə olacaq.

Bu mövzular çərçivəsində BMT-nin Baş katibi Antoniu Quterreşin təşəbbüsü ilə sentyabrın 23-də təşkilatın ərzaq sistemləri üzrə ilk sammiti keçiriləcək. Həmin gün Təhlükəsizlik Şurasında iqlim və təhlükəsizlik məsələləri üzrə xüsusi müzakirələr də gözlənilir. Sentyabrın 24-nə isə energetika üzrə yüksəksəviyyəli dialoq planlaşdırılıb.

ABŞ Prezidenti Co Baydenin gələn həftə ilk dəfə BMT Baş Assambleyasında çıxışı gözlənilir. Bu barədə Ağ evin Mətbuat xidməti bildirib. Məlumatda deyilir ki, Prezident BMT Baş Assambleyasında çıxış etmək üçün sentyabrın 21-də Nyu Yorka gedəcək.

Bundan əvvəl ABŞ lideri pandemiyaya qarşı mübarizədə digər dövlətlərə yardım etmək üçün yeni tədbirlər həyata keçirmək niyyətində olduğunu bəyan etmişdi.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Əziz Ələkbərova anası
**NAZLI XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, komitə üzvləri Məlahət İbrahimqızı, Ziyad Səmədzadə, Səttar Möhbalıyev, Aqil Məmmədov, Jalə Əliyeva, Sevinc Hüseynova, Rauf Əliyev, Arzu Nağıyev, İlham Məmmədov, Vüqar Bayramov, Soltan Məmmədov, Milli Məclis Aparatının əməkdaşları İlahə Mehrəliyeva, Elşən Cəfərov və Hüseyn Əliyev Milli Məclisin deputatı Əziz Ələkbərova anası
**NAZLI XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Şəmsəddin Hacıyev AMEA-nın akademik-katibi, akademik Arif Həşimova bacısı
**SÜSƏN XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səfa və Xatirə Mirzəyevlər Səyavuş Heydərova həyat yoldaşı
**ZENFİRA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə anası
**SVETLANA ALLAHQULU QIZI GƏRAYBƏYLİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

YAP Veteranlar Şurasının üzvü, professor Nurlana Əliyeva Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə anası
**SVETLANA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Əziz Ələkbərova anası
**NAZLI QƏLƏNDƏROVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi maliyyə nazirinin müşaviri Musa Yusifova atası
**ƏLİ YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun direktoru Cəmilə Qurbanova və institutun kollektivi Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə anası
**SVETLANA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5005
Sifariş 1699
Qiymətı 40 qəpik